www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 5 iyul 2023-cü il Çərşənbə № 112 (8248) Qiymәti 60 qəpik

**Xəbər**

## Həbsxanalarda dustaqların sayını necə azaltmalı?

yazısı səh.12-də

**Gündəm**

### 2256 saylı qətnamənin sirri: Qarabağda beynəlxalq missiya?




AŞ PA-nın qəbul etdiyi anti-Azərbaycan qətnaməsinin arxasından da Fransa çıxdı

yazısı səh.4-də

### Kreml üçün Haaqada məhkəmə qurulur - bəs erməni caniləri?

yazısı səh.6-da

### Nəcməddin Sadıkovun yaxın adamı azadlığa buraxıldı

yazısı səh.3-də

### Ağ Ev Azərbaycandakı etirazları görməzdən gəlir - səbəb

yazısı səh.8-də

### Ölkədə oxuyub-yazmağı bacarmayan "11"cilər...

yazısı səh.10-da

### Deputatla hərbi ekspert arasında şəhid sayı mübahisəsi

yazısı səh.11-də

### Rusiyalıların artan Bakı sevdası - şimaldan köçə hazırıqmı?

yazısı səh.11-də

### Ölkəmizə rekord həcmdə palma yağı idxal edilib

yazısı səh.15-də

### Baydenə Bakıdan təbrik

yazısı səh.4-də

### Xaçmazın hərbi komissarı saxlanıldı

yazısı səh.2-də

### "Birinci müharibədə qalib idik" deyənlərə Paşinyandan cavab

yazısı səh.5-də

# XANKƏNDİDƏ "BAKI İLƏ DANIŞIQLAR" MÖVZUSUNDA DİDİŞMƏ

Təlxək yığını üçün halqa daralır, dialoqdan başqa çarə qalmadığını etiraf edirlər; **analitik:** "Separatçılar dialoqa razılaşsalar da, bu, tərk-silah anlamına gəlməyəcək"



yazısı səh.7-də

# Səfirliyə hücumdan sonra bir ilk...

Tehranın baş diplomatının Azərbaycan səfərindən nələr gözləyək?; ekspertlərdən maraqlı proqnozlar və təhlillər...

yazısı səh.9-da



### Şeyxin dini kolleclərinin diplomları tanınmayacaq

yazısı səh.3-də



### Qriqoryanın ABŞ-a mübhəm səfəri

yazısı səh.5-də



### Talıbov "Badamlı"nı satdı

yazısı səh.3-də

yazısı səh.7-də



## Prezident Zərdabda yol tikintisinə 6,4 milyon manat ayırdı

**Prezident İlham Əliyev Zərdab rayonunun Ağabağı-Kəndəbil-Şıxbağı-Nəzərallı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.**

Sərəncamla dörd min nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən Ağabağı-Kəndəbil-Şıxbağı-Nəzərallı avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 6,4 milyon manat ayrılıb.

Maliyyə Nazirliyinə bu sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə bu sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

## Xaçmazın hərbi komissarı saxlanıldı



**Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Xaçmaz Rayon Şöbəsində əməliyyat keçirib.**

"Qafqazinfo"nun əldə etdiyi xəbərə görə, əməliyyat zamanı şöbə rəisi Rahim Ağayev saxlanılıb.

Məlumatı Baş Prokurorluğun Mətbuat Xidmətindən təsdiq ediblər.

Bildirilib ki, əməliyyat barədə ətraflı məlumat veriləcək.

## Elza Seyidcahan Yazıçılar Birliyinə üzv oldu



**Müğənni-bəstəkar Elza Seyidcahan Azərbaycan Yazıçılar Birliyinin (AYB) üzvlüyünə qəbul edilib. Bu barədə Xalq yazıçısı, AYB-nin sədr müavini Çingiz Abdullayev məlumat verib. Onun sözlərinə görə, AYB-yə dəvət olunan E.Seyidcahana üzvlük bileti təqdim edilib. "Bu gün Elza Seyidcahan üzvlük vəsiqəsi alıb", - deyə xalq yazıçısı yazıb.**

## 38 yaşlı qadın əməliyyat zamanı ölüb

**Sumqayıt Perinatal Mərkəzində 38 yaşlı qadın əməliyyat zamanı ölüb. Bu barədə Baş Prokurorluğun mətbuat xidmətindən bildirilib. "İyulun 4-də 1985-ci il təvəllüdlü Fəttayeva Günel Əhəd qızının Sumqayıt Perinatal Mərkəzində cərrahiyyə əməliyyatı zamanı ölməsi faktı üzrə Sumqayıt Şəhər Prokurorluğunda araşdırma aparılır", - məlumatda qeyd edilir.**

## Azərbaycanın nə qədər xarici borcu var?

**Gürcüstan Milli Bankı xarici borc hesabatı yayıb. Novator.az bildirir ki, 2023-cü il martın 31-nə ölkənin ümumi xarici borcu 23,9 milyard dollar (ümumi daxili məhsulun 90,2 faizinə bərabər) göstərilir. Bu məbləğə dövlətin (hökumətin, Milli Bankın, dövlət müəssisələrinin), bank sektorunun, özəl müəssisələrin borcları və şirkətlər arasında borclar daxildir.**

Rəsmi açıqlamaya əsasən, 1 aprel 2023-cü ilə Azərbaycanın 6 milyard 679,7 milyon ABŞ dolları məbləğində xarici borcu olub.

# Azərbaycanı həyəcanlandıran 10 saniyə...



**"Saat 00:01-də Xəzər dənizində, Azərbaycanın şimal-şərqində zəlzələ baş verdi. Yeraltı təkanlar 5.5 bal gücündə idi. Zəlzələnin maqnitudası dərində olduğu üçün bütün şimal rayonları, eləcə də Bakı şəhəri daxil olmaqla Abşeron yarımadasında hiss olundu".**

Bunu AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru Qurban Yetirmişli iyulun 4-də Xəzər dənizində baş vermiş zəlzələyə dair mətbuat konfransında deyib.

"Təkanın baş verməsi 10 saniyədən az çəkib, qorxulu deyildi. Heç bir fəsad və dağıntı olmayıb. Sosial şəbəkələrdə şayiələr yayılmışdı, insanlar onlara inanmasın. Ancaq rəsmi qurumların məlumatlarına inansınlar", - Qurban Yetirmişli vurğulayıb.

**O bildirib ki, FHN əməkdaşları da hazırda yerlərdə araşdırma aparır:** "Əhaliyə müraciət edirəm ki, sosial şəbəkələrdəki şayiələrə deyil, rəsmi məlumatlara inansınlar. Rahat evinizdə yatın. Dünənki təkanlar çox dərində olub, heç bir təhlükəsi yoxdur. O dalğa yaşayış məntəqələrində heç bir fəsad törədə bilməz. Əsas təkan ilk saniyələrdə olub. Ondan güclünün olması ehtimalı yoxdur. Sonra da təkanlar olub, lakin zəif olub və ancaq cihazlar qeydə ala bilib".

**Onun sözlərinə görə, Azərbaycanda köhnə seysmik rayonlaşdırma xəritəsi var, lakin müasir tələblərə cavab vermir:** "Biz bu məsələni qaldırmışıq və hazırda FHN-lə birgə bu istiqamətlərdə iş aparırıq".

Direktor bildirib ki, ölkə 8-9 ballıq zəlzələ bölgəsində yerləşir. FHN-in layihələndirmə idarəsində bina tikintiləri zamanı bu məsələ nəzarətdədir.

Qeyd edək ki, yerli vaxtla saat 00:01-də Xəzər dənizində maqnitudası 5.7 olan zəlzələ qeydə alınıb. Yeraltı təkanlar Quba, Xaçmaz, Siyəzən rayonları, Sumqayıt və Bakı şəhərləri, Abşeron yarımadası və ona yaxın ərazilərdə 5-4 bala qədər hiss olunub.

## Ötən il imtahan verənlərin 30 faizindən çoxu kəsilib

**2022-ci ildə ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak edən məzunların 22 faizi dövlət ali məktəblərinə dövlət sifarişi əsasında qəbul olunub.**

Bu barədə "Abituriyent" jurnalının 12-ci buraxılışında məlumat yer alıb.

Bildirilib ki, imtahanlarda iştirak edənlərin 1,3 faizi özəl ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında qəbul olunub. Bundan əlavə, 15,1 faizi dövlət ali təhsil müəssisələrinə ödənişli əsaslarla, 4,1 faizi özəl ali məktəblərə ödənişli əsaslarla qəbul olublar.

İmtahanda iştirak edənlərin 8,5 faizi tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olunublar. 18,6% məzun qəbul kampaniyasında iştirak etməyib. İmtahanlarda iştirak edənlərin 30,5 faizi isə qəbul olmayanlardır.

## Tarif Şurası dərmanların qiymətinə yenidən baxacaq



**"Dərman vasitələri haqqında" Qanuna dəyişikliklərdə əsas məqsəd dərman vasitələrinin çeşidinin artırılması və əlçatanlığın təmin olunmasıdır. Səhiyyə Nazirliyinin sifarişi əsasında Tarif Şurası dərman vasitələrinin qiymətlərinə yenidən baxacaq.**

Bunu səhiyyə nazirinin müavini Rasim İsmayılov Milli Məclisin Səhiyyə komitəsinin iyulun 4-də keçirilən iclasında "Dərman vasitələri haqqında" Qanunda dəyişikliklə bağlı qanun layihəsinin müzakirəsi zamanı deyib.

Ölkədə dərman vasitələrinin qiymətlərinin tənzimlənməsindən danışan nazir müavini qanuna dəyişikliklərin vətəndaşlar üçün əhəmiyyətli olduğunu bildirib.

Onun sözlərinə görə, dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi hər ölkəyə görə fərqlənir.

"Fərq ondan ibarətdir ki, dərmanların satışı alıcının seçimi əsasında deyil, həkimlərin və ya əczaçının tövsiyəsi əsasında həyata keçirilir", - deyə Rasim İsmayılov vurğulayıb.

## Bakıda isti, dağlıq rayonlarda leysan...



**İyulun 5-də Bakıda və Abşeronda əsasən yağıntı olmayacaq, mülayim şimal-qərb küləyi gözlənilir. Havanın temperaturu gecə müsbət 19 +24, gündüz müsbət 29 +34 dərəcə olacaq, Milli Hidrometeorologiya Xidməti bildirib.**

Rayonlarda da əsasən yağıntı olmayacaq. Lakin gecə və səhər bəzi dağlıq və dağətəyi ərazilərdə arabir yağış yağacaq, bəzi yerlərdə leysan olacaq, şimşək çaxacağı gözlənilir, dolu düşəcəyi ehtimalı var.

Mülayim şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə müsbət 18 +23, gündüz müsbət 31 +36 dərəcə olacaq.

Dağlarda gecə müsbət 10 +15, gündüz müsbət 17 +22 dərəcə gözlənilir.



## Hacı Şahinə məzar daşı niyə qoyulmur?

**Tanınmış ilahiyyatçı, "Məşədi Dadaş" məscidinin mərhum imamı Hacı Şahin Həsənlinin məzar daşı hələ də hazır deyil.**

"Qafqazinfo" xəbər verir ki, İslam adətlərinə görə, şəxs vəfat etdikdən 40 gün sonra qəbirüstü abidəsi qoyulsa da, Hacı Şahinin qəfil vəfatından 4 ay keçməsinə baxmayaraq, məzarı başında heç bir hazırlıq işi görülmür.

Məsələ ilə bağlı Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Mətbuat Xidmətinin rəhbəri Rəhimə Dadaşova ilə əlaqə saxlamaq cəhdlərimiz baş tutmadı. Səlahiyyətli din xadimlərindən biri isə bu barədə danışmaq istəmədiyini bildirdi.

Qeyd edək ki, iyulun 7-si Hacı Şahinin 49 yaşı olacaq və sevənləri də qəbirüstü abidənin məhz ad gününə hazır olacağına ümid edirdilər.

## Rusiya azərbaycanlıları deportasiya edəcək?

**Rusiya Prezidenti yanında Millətlərarası Münasibətlər Şurasının üzvü Boqdan Bezpalko anti-Azərbaycan bəyanatı ilə çıxış edib.**

O, Azərbaycanın anti-Rusiya siyasəti yürüdəcəyi təqdirdə Ukraynanın aqibəti ilə üzləşəcəyini, heç kimin bu ölkəyə rəhmi gəlməyəcəyini deyib.

Bezpalko həmçinin Azərbaycanın Türkiyə ilə birlikdə Rusiyanı Qafqazdan sıxışdırmağa çalışdığını bildirib və Rusiyadakı azərbaycanlı iş adamlarına, eləcə də Azərbaycan diasporuna qarşı sərt addımlar atılmalı olduğunu bildirib. O, Azərbaycanın Rusiyada çalışan azərbaycanlıları deportasiya etməklə də hədələyib.

## Dövlət qulluğuna qəbul proqramında dəyişiklik

**Dövlət qulluğuna qəbul, eləcə də dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üçün keçirilən test imtahanının məntiqi təfəkkürün yoxlanılması üzrə proqramına müəyyən dəyişiklik edilib.**

Bu barədə DİM-dən məlumat verilib.

Belə ki, dövlət qulluğunun vəzifə qrupları üçün məntiqi təfəkkür üzrə imtahan proqramlarındakı fərq aradan qaldırılmaqla AB, AC, BA və BB vəzifə qrupları üzrə imtahan proqramı eyniləşdirilib.

YENİ MÜSAVAT
N 112 (8248) 5 iyul 2023

# Qərar verildi: Şeyxin dini kolleclərinin diplomları tanınmayacaq

## Deputat hesab edir ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bu qərarı çıxış yolu deyil

**"Dini təhsil bu gün əsas prioritet istiqamətlərimizdən biridir. Dini duruma olduğu kimi, dini təhsil sahəsinə də mümkün qədər nəzarətin təmin edilməsi, habelə xarici təsirlərin dini təhsillə bağlı proseslərdən kənar tutulması olduqca vacibdir". Bunu APA-ya açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dini təhsil şöbəsinin müdiri, dinşünas Elnarə Kərimova deyib.**

Onun sözlərinə görə, Azərbaycanın yerləşdiyi region, bu regionun həssaslığı, kənar təsirlərin mövcudluğu, eyni zamanda ölkəmizdəki dini durum, tarixən formalaşmış tolerantlıq ənənələri və burada mövcud olmuş məzhəblərarası münasibətlər dini təhsil sahəsinə ölkəmizin hərtərəfli təhlükəsizliyi prizmasından baxılmasını zəruri edir: "2018-ci ildə Prezident İlham Əliyevin sərəncamına əsasən, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan İlahiyyat İnstitutu yaradıldıqdan sonra dini təhsil sahəsində yeni mərhələyə qədəm qoyuldu. Ötən müddət ərzində institut formalaşma dövrü keçib və bu formalaşma dövründə artıq öz məzunlarını verib. Hətta məzunların bir qismi təyinat da alıb. Bütün bunlar onu göstərir ki, İlahiyyat İnstitutu etimadı və ona bəslənən ümidləri doğruldur və doğrultmaqda davam edir".

**Elnarə Kərimova bildirib ki, dini orta ixtisas təhsili müəssisələrinə, yəni mədrəsə, İslam kolleclərinə gəlincə, hazırda ölkədə 5 dini orta ixtisas təhsil müəssisəsi - Lənkəran İslam Kolleci, Şəki İslam Kolleci, Əliabad İslam Kolleci, Zaqatala İslam Kolleci və Şəbnəm (qızlar) İslam Kolleci fəaliyyət göstərir:**

""Dini etiqad azadlığı haqqında" Qanuna əsasən, dini təhsil müəssisələri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dövlət qeydiyyatından keçməklə yanaşı, xüsusi razılıq (lisenziya) əsasında fəaliyyət göstərməli və onlara qəbul Dövlət İmtahan Mərkəzi tərəfindən aparılmalıdır. Lakin Qafqaz Müsəlmanları İdarəsinin təsisçisi olduğu və Gənclərə Yardım Fondunun himayəsi altında fəaliyyət göstərən bu kolleclər lisenziya almadıqlarına görə oraya qəbul da Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilmir. Bu da cari ildən həmin kolleclərə qəbul olan şəxslərin diplomlarının etibarsız hesab ediləcəyi deməkdir. Bununla bağlı həmin kolleclər artıq rəsmi olaraq məlumatlandırılıb".

**İlahiyyatçı Rəsul Mirhəşimli** "Yeni Müsavat"a bildirdi ki, bütün sahələrdə olduğu kimi, dini təhsil də qanunların tələbləri səviyyəsində tənzimlənməlidir. Onun fikrincə, Azərbaycanda fəaliyyət göstərən dini orta ixtisas təhsil müəssisələrinin diplomlarının tanınmaması ilə bu problem əsaslı şəkildə həll olunmuş sayılmır: "Ali dini təhsil almaq istəyənlərin dini biliklərinin formalaşması üçün bu tipli kolleclərin də formalaşmasına ehtiyac var. Onun üçün dövlət ya bu məktəblərin bazasını yenidən qurmalı, ya da təhsil bazasının artırılması üçün müəyyən tədbirləri həyata keçirməlidir. Bu kolleclərin dövlətin nəzarətində fəaliyyət göstərməsi üçün hüquqi prosedurlar yetərli deyilsə, yeni kolleclərin təşkili ilə müəyyən irəliləyişə nail olmaq mümkündür. Azərbaycanda yüksək səviyyədə ali təhsil verən İlahiyyat İnstitutu fəaliyyət göstərir. İllər keçdikcə bu ali təhsil məktəbində dərs deyən peşəkar kadrların hesabına dini biliklərin öyrədilməsinin keyfiyyəti daha da artacaq. Əgər dünyəvi təhsil verən ali məktəblərə qədər kolleclər fəaliyyət göstərirsə, dini kolleclərin də olması əlavə problem yaratmayacaq. Bu halda həmin kolleclər dövlətin himayəsini hiss edəcək, orada təhsil alanlar da dini bilikləri dövlətimiz vasitəsilə almış olacaq. Bir sözlə, vətəndaşlara dini bilikləri özümüz öyrətməklə Vətənə bağlılıq üçün mənəvi keyfiyyətlər də aşılanmış olacaq. Əgər dini bilikləri özümüz öyrətməyə çalışmasaq, özgələr müxtəlif missiyaların təsiri ilə "öyrətməyə" çalışacaq. Azərbaycanın inanclı insanları "Vətəni sevmək imandandır" hikmətinə söykənən insanlardır. Bu baxımdan da Azərbaycan dövləti dini təhsilin bazasını genişləndirməklə inanclı insanların biliklərinin təkmilləşdirilməsinə yardımçı ola bilər. Etiraf edək ki, insanlar bir-birindən biliklər əldə etmək bacarıqlarına görə fərqlənirlər. Cəmiyyətdə dünyəvi təhsil almaq istəyənlər hamısı ali məktəblərə imtahanlarda uğur qazana bilmədikləri kimi, dini təhsil almaq istəyənlərin də bilik səviyyəsi fərqlənir. Bu baxımdan, dini təhsil ardınca gedənlərin hamısı təbii olaraq, İlahiyyat İnstitutuna qəbul ola bilmir. Həmin insanlar dövlətin himayəsindəki dini kolleclərdə oxuya bilərlər".

**Millət vəkili Ceyhun Məmmədov hesab edir ki, kolleclərin fəaliyyətinin dayandırılması məsələdən çıxış yolu deyil. C.Məmmədov bu kolleclərin mütləq əksəriyyətinin xeyli zamandır fəaliyyət göstərdiyini və Azərbaycanda dini vəziyyətə təsir göstərdiyini bildirdi:** "Əliabad İslam Kolleci, Şəki İslam Kolleci, illər öncə Xosrov mədrəsəsi var idi ki, fəaliyyəti qənaətbəxşdir. Lənkəran İslam Kolleci nisbətən yeni müəssisədir, hazırda fəaliyyət göstərsə də, bütün tələblərə cavab vermir. Şəbnəm İslam Kollecində isə yalnız qızlar təhsil alır. Azərbaycanda yalnız ali dini təhsil müəssisəsinin olması yetərli deyil. Eyni zamanda kolleclərin fəaliyyəti önəmlidir. İllər öncə Prezident Administrasiyasında işləyərkən Azərbaycanda 10 kollecin fəaliyyət göstərməsinə icazə vermişdik. Fikrimcə, kolleclərin Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, yaxud İlahiyyat İnstitutunun nəzarətində fəaliyyət göstərməsi məqsədəuyğun olar. Bu kolleclərin fəaliyyətinin dayandırılması bir tərəfdən müsbət təsir göstərsə də, digər tərəfdən mənfi təsir göstərəcək. Digər sahələrdə olduğu kimi, ali təhsil müəssisələri ilə yanaşı, kolleclər var, dini təhsil sahəsində də bu təcrübəni tətbiq etmək olar".

**Millət vəkili xüsusilə şimal bölgəsinə diqqət çəkərək qeyd etdi ki, bu bölgədə dini kolleclərin fəaliyyətinin dayandırılması Rusiya və digər qonşu ölkələrin təsirini artıra bilər:** "Diqqətli və həssas yanaşmaya ehtiyac var. Əgər lisenziya ilə bağlı problem varsa, bunu həll etmək olar".



**❑ Nigar HƏSƏNLİ, "Yeni Müsavat"**



# Talıbovlar "Badamlı"nı satdılar

**"Badamlı Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyəti (MMC) satılıb. "APA-Economics" xəbər verir ki, şirkət "Mineral Sular" MMC (6 fərdi sahibkar) tərəfindən satın alınıb. Artıq cəmiyyətin yeni icraçı direktorunun adı da məlumdur. Bu vəzifəyə Azad Həsənov təyin edilib.**

Qeyd edək ki, "Badamlı Mineral Sular" MMC-nin bundan öncəki rəhbəri Hümbət Qəhrəmanov Naxçıvan Muxtar Respublikasının keçmiş ali sədri Vasif Talıbovun oğlu Seymur Talıbovun bacanağıdır və şirkətin S.Talıbova məxsus olduğu bildirilirdi.

Məlumat üçün deyək ki, "Mineral Sular" MMC-nin üzvlərindən biri Naxçıvanda yerləşən "Ləzzət Qida Sənaye" MMC-nin təsisçilərindən olan Teymur Rzayevdir və hazırda "Sirab" şirkəti də bu quruma daxildir.

Xatırladaq ki, bundan əvvəl Talıbovlar "Gəmiqaya Holdinq"lə bağlı eyni aqibəti yaşayıblar.



# Nəcməddin Sadıkovun yaxın adamı azadlığa buraxıldı

**Müdafiə Nazirliyinin Daxili Təhlükəsizlik, həmçinin Təhsil-tədris və Elmi tədqiqatlar idarəsinin sabiq baş zabiti Zahid Niftəliyev və N saylı hərbi hissənin tağım komandiri müavini Elsevər Niftəliyevin cinayət işi üzrə məhkəmə araşdırması başa çatıb.**

"Qafqazinfo" xəbər verir ki, Tərtər Hərbi Məhkəməsində keçirilən sonuncu iclasda hökm oxunub.

Hakim İlqar Əliyevin sədrlik etdiyi hakimlər heyəti belə qənaətə gəlib ki, təqsirləndirilən şəxslərə verilmiş ittihamlar əsassızdır.

Hökmə əsasən Zahid Niftəliyevin əməli Cinayət Məcəlləsinin 311-ci (rüşvət alma) maddəsindən 312.1-ci (rüşvət verməyə təhrik etmə) maddəsinə tövsif edilib.

Z.Niftəliyev bu maddə ilə təqsirli bilinib, ona 10 min manat cərimə cəzası təyin edilib. Onun barəsində seçilmiş həbs-qətimkan tədbiri ləğv edilib, məhkəmə zalından birbaşa azadlığa buraxılıb.

Təqsirləndirilən gizir Elsəvər Niftəliyevin isə əməlində cinayət tərkibi olmadığından ona bəraət verilib.

Qeyd edək ki, Z.Niftəliyev və E.Niftəliyev Hərbi Prokurorluğun İstintaq İdarəsi tərəfindən cinayət məsuliyyətinə cəlb ediliblər.

Onlara qarşı Cinayət Məcəlləsinin 311.3.1, 311.3.2 və 311.3.3 (qabaqcadan əlbir olub külli miqdarda təkrar rüşvət alma) maddəsi ilə ittiham verilib. Zahid Niftəliyevə həm də Cinayət Məcəlləsinin 341-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə və ya səlahiyyət həddini aşma) maddələri ilə ittiham irəli sürülüb. Z.Niftəliyev rüşvət almaqdan əlavə hərbçiləri qanunsuz olaraq öz bağ evində işlətməkdə təqsirləndirilirdi.

Z.Niftəliyev Azərbaycan Ordusunun keçmiş Baş Qərargah rəisi Nəcməddin Sadıkovun yaxın adamı olub. O, "Şlyapa Zahid" ləqəbi ilə tanınıb.

**Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) yay sessiyasında Azərbaycan əleyhinə qəbul olunan 2256 saylı qətnamə Bakıda o qədər də diqqətə alınmasa da, İrəvan bundan xeyli həvəslənib.**

# 2256 saylı qətnamənin sirri: Qarabağda beynəlxalq missiya...

## AŞ PA-nın qəbul etdiyi anti-Azərbaycan qətnaməsinin arxasından da Fransa çıxdı; Bakının bu qətnaməyə ciddi önəm verməməsinin səbəbləri nə ola bilər?

“Yeni Müsavat”ın siyasət şöbəsi yazır ki, Paşinyan hakimiyyəti xüsusilə AŞ PA qətnaməsinin 8-ci bəndinə diqqət edir. “Assambleya Dağlıq Qarabağın erməni əhalisinin hüquq və təhlükəsizliyi məsələlərinin sülhün həyata keçirilməsi üçün istənilən mexanizm çərçivəsində neytral beynəlxalq iştirakı ilə Bakı və Stepanakert (Xankəndi-red) arasında dialoq yolu ilə həllini tələb edir. Assambleya Laçın dəhlizinin Azərbaycan tərəfindən bağlanmasının 9 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın pozulması olduğunu vurğulayıb, Dağlıq Qarabağa təbii qaz və elektrik enerjisinin verilişinin dayandırılması faktını bəyan edib. Dağlıq Qarabağdakı vəziyyəti humanitar və insan hüquqları böhranı kimi qiymətləndirir və BMT Baş Assambleyasının diqqətinə çatdırır. Avropa Şurası Xarici İşlər Nazirləri Komitəsi bu böhranla bağlı faktaraşdırıcı missiyanın Dağlıq Qarabağa və Laçın dəhlizinə tez bir zamanda göndərilməsinin zəruriliyini vurğulayır”.

Təsadüfi deyil ki, Nikol Paşinyan AŞ PA-da qəbul edilmiş anti-Azərbaycan qətnaməsini “Dağlıq Qarabağda yaranmış humanitar böhrana beynəlxalq diqqətin cəlb edilməsi baxımından ən mühüm sənəd” adlandırıb. Azərbaycan XİN-in qətnaməyə rəsmi münasibəti olmasa da AŞ PA-nın qətnaməsi haqda ağızdolusu danışan və şərh edən Paşinyana cavab verib. XİN hesab edir ki, Ermənistanın baş nazirinin fikirləri cəfəngiyyatdır və Bakı bunu qətiyyətlə rədd edir. **Sitat:** “Ermənistan tərəfinə bir daha xatırladırıq ki, Laçın sərhəd buraxılış məntəqəsində Azərbaycanın Qarabağ bölgəsinin yerli erməni əsilli sakinlərinin şəffaf və təhlükəsiz şəkildə hər iki istiqamətdə keçidi üçün müvafiq şərait yaradılmasına, məntəqə yaradılandan yüzlərlə erməni sakinin buradan keçməsinə baxmayaraq, məhz 15 iyun tarixində Ermənistan silahlı qüvvələrinin təxribatı Laçın sərhəd-buraxılış məntəqəsindən təhlükəsiz keçidə maneçilik törədib”.

Bakının bu qətnaməyə ciddi önəm verməməsinin səbəbləri nə ola bilər? Ermənistan bir neçə aydır ki, mütəmadi olaraq Qarabağ iqtisadi bölgəsinə faktaraşdırıcı missiyanın göndərilməsinə çalışır və bunu qətnaməyə sala bildilər. Bakının razılığı olmadan bu missiyanın gəlməsi, əlbəttə, mümkünsüzdür, amma bu, 21 iyul görüşü ərəfəsi Azərbaycana yeni təzyiq rıçaqları yaratmaq imkanı verir. Ola bilsin ki, rəsmi Bakıda tam əminlik var - nə əski parçası olan qətnamənin hüquqi qüvvəsi mövcuddur, nə də tövsiyə xarakterli bu sənədə istinad edilərək Azərbaycandan icazəsiz faktaraşdırıcı missiya göndərilə bilər. Üstəlik, hər gün Laçın postundan görüntülər yayılır, dinc ermənilər “quzu balası” kimi sakitcə növbədə dayanıblar, yoxlanılıb buraxılırlar. Yəni nə blokada var, nə yol bağlanıb, nə hansısa humanitar fəlakət yaşanır.

Hətta Beynəlxalq Qızıl Xaç Komitəsinin təcili tibbi yardım maşınları Xankəndidən İrəvana xəstə aparıb-gətirirlər. Əslində buna da zərurət yoxdur. Nə üçün Azərbaycan ərazisində yaşayan erməniəsilli sakinlər Ermənistanda müalicə almalıdırlar? Bizim təcili tibbi yardım maşınlarımız onları Gəncənin, Bərdənin xəstəxanalarına aparıb-gətirə bilərlər. Növbəti mərhələdə bu məsələlər də həll olunmalıdır. Eyni zamanda Qarabağda sülənən Araik Arutyunyan köçüb gedən ermənilərə “cəhənnəmə getsinlər” deməklə vəziyyətinin nə dərəcədə getdikdə ağırlaşdığını etiraf etmiş oldu. O zaman AŞ PA bu qətnamə ilə kimə qahmar çıxır? Blokadada olan separatçılara, yoxsa onların əsarətində olan mülki ermənilərə?

**Deputat Asim Mollazadə “Yeni Müsavat”a qeyd etdi ki, bu qətnamə anti-Azərbaycan, antitürk və antiislam mahiyyəti daşıyır. A.Mollazadənin sözlərinə görə, qətnamənin qəbul edilməsinin arxasında Fransa dayanır və təzyiq məqsədi güdür. Deputat hesab edir ki, Fransada baş verənlər antisemitizm, rasizmin bu ölkədə olduğunu ortaya qoyur:** “Avropa Şurası Fransadakı hadisələri araşdırmalıdır və deyilməlidir ki, bu rasizm qurumun təməl prinsiplərinə ziddir. Əgər belə olmasa, deməli, Avropa bəyan etdiyi öz dəyərlərinə hörmət qoymur və köhnə imperiya istəkləri ilə yaşayır. Ona görə Avropa Şurası ilk növbədə Fransa hadisələrinə diqqət yetirməlidir. O ki qaldı faktaraşdırıcı missiya göndərilməsinə, Azərbaycanın razılığı olmadan mümkün deyil”.

**Sosial Tədqiqatlar Mərkəzinin sözçüsü, siyasi ekspert Əziz Əlibəylinin sözlərinə görə, Avropa ilə Azərbaycanın əlaqələrinin xarakteri dəyişməkdədir:** “Məsələn, ATƏT aparıcı Avropa təşkilatı kimi əhəmiyyət kəsb edirdi. Keçmiş dövrdən miras qalmış münaqişə ilə bağlı məğlubiyyət sindromunu özündə saxlayırdı. Vətən müharibəsi bunu dəyişdi və ATƏT-lə əlaqələr məhdudlaşdı. İndi təxminən Avropa Şurası da belədir. Qurumun alt komitələri insan haqları, media məsələləri ilə bağlı Azərbaycana ciddi hücumlar etməyə başlayıblar. Azərbaycan tərəfi bəyan etdi ki, birtərəfli hücumlardır. Bu gün Fransada insan haqları pozulur, amma hesabatlar görmürük. O cümlədən 1 milyon məcburi köçkün və qaçqınımız var, mülkiyyət hüquqları tapdanıb, insanlıq əleyhinə müharibə cinayətləri törədilib, amma Avropa Şurasının hansısa konvensiyası yoxdur. Ona görə mübahisə meydana çıxdı və zaman keçdikcə Azərbaycanın Qərbdə əsas tərəfdaşı Avropa İttifaqı olmağa başladı. Bu baxımdan rəsmi Bakı münaqişə ilə bağlı aktiv fəaliyyətə keçən Ermənistana, baş naziri Paşinyana cavab verməyi proritet hesab edir, nəinki Avropa Şurasına, onun ermənipərəst deputatlarına. Həmin qətnaməyə reaksiya vermək prioritet deyil”.




Xatırladaq ki, Fransanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Ann Buayon Xarici İşlər Nazirliyinə çağırılıb. Fransa Prezidenti Emmanuel Makronun Marsel şəhərində erməni icması ilə görüşdə Azərbaycan əleyhinə səsləndirilmiş, Ermənistanı birtərəfli qaydada müdafiə edən və həqiqəti əks etdirməyən fikirləri ilə bağlı Fransa tərəfinə etiraz edilib və məsələyə dair Fransa tərəfindən izahat istənilib. Səfirə bildirilib ki, dəfələrlə anti-Azərbaycan bəyanatları ilə yadda qalan E.Makronun yenidən qərəzli fikirlər səsləndirməsi, Fransa prezidentinin Fransanın erməni lobbisinin əlində bir alət olduğunun, müharibə və müharibədən sonrakı dövrdə öz məqsədlərinə nail ola bilmədiyinin bariz nümunəsidir. Vurğulanıb ki, Ermənistan tərəfindən Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi və Qarabağ bölgəsinin Azərbaycanın tərkib hissəsi kimi tanınması fonunda E.Makrona istinadən yayılmış bu kimi qərəzli bəyanatlar bölgədə sülhün və əmin-amanlığın bərqərar olmasına mane olmaqla yanaşı, separatçılıq və terrorçuluğu təşviq edənlərin və dəstəkləyənlərin destruktiv fəaliyyətini daha da genişləndirməsinə rəvac verir.

❑ **Emil SALAMOĞLU**
**“Yeni Müsavat”**



# Baydenə Bakıdan təbrik

**“Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında əlaqələr dostluq və əməkdaşlıq zəminində dinamik inkişaf edərək bir sıra sahələrdə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. Qlobal çağırışlara, beynəlxalq terrorizmə qarşı mübarizə, təhlükəsizlik məsələlərində fəal və səmərəli birgə işimiz, iqtisadi sahədə geniş spektrdə qarşılıqlı fəaliyyətimiz ikitərəfli münasibətlərimizi səciyyələndirən başlıca amillərdəndir”.**

Bu fikirlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Baydenə milli bayram münasibətilə ünvanlandığı təbrik məktubunda yer alıb.

Enerji sahəsindəki əhəmiyyətli əməkdaşlığımızın məmnunluq doğurduğunu vurğulayan dövlətimizin başçısı qeyd edib: “Birləşmiş Ştatlar Azərbaycanın enerji strategiyasını bütün mərhələlərdə qətiyyətlə və davamlı şəkildə dəstəkləmişdir. Biz enerji təhlükəsizliyinin təmin olunmasında ölkələrimizin sıx əməkdaşlığını, reallaşdırdığımız irimiqyaslı transmilli layihələrdə ABŞ-ın hərtərəfli dəstəyini xüsusi dəyərləndiririk”.

# Azay Quliyev yenidən ATƏT PA-da komitə sədri seçilib

**ATƏT Parlament Assambleyasının (PA) Vankuverdə keçirilən illik sessiyasında Milli Məclisin deputatı, Azərbaycan nümayəndə heyətinin rəhbəri Azay Quliyev yenidən qurumun İqtisadi və Ekoloji məsələlər üzrə Komitəsinin sədri vəzifəsinə seçilib.**

Bu barədə o, Twitterdə məlumat verib.

“Vankuverdə keçirilən iclasda məni yenidən ATƏT Parlament Assambleyasının İqtisadi və Ətraf Mühit Məsələləri üzrə Baş Komitəsinin sədri vəzifəsinə seçdikləri üçün həmkarlarıma səmimi qəlbdən təşəkkür edirəm. Bütün gözləntiləri doğrultmaq üçün əlimdən gələni edəcəyəm, həmçinin bütün nümayəndələrlə sıx əməkdaşlığı səbirsizliklə gözləyirəm”, - o qeyd edib.

**Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan iyulun 4-də Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqtona işgüzar səfər edib. "Yeni Müsavat" erməni mediasına əsasən bildirir ki, səfər zamanı onun ABŞ prezidentinin milli təhlükəsizlik müşaviri Ceyk Sallivan və digər yüksək vəzifəli rəsmilərlə görüşləri planlaşdırılır.**

# Qriqoryanın mübhəm səfəri - İrəvan ABŞ-la hansı mövzuda "pıçıldaşır"?

## Ermənistan Təhlükəsizlik Şurası katibinin nazirlərin Vaşinqton görüşündən dərhal sonra Amerikaya səfəri təsadüfi sayılmır - rəy






Qriqoryan Vaşinqtonda Ermənistan-ABŞ ikitərəfli əməkdaşlığını müzakirə edəcək. Bu səfərin xarici işlər nazirlərinin Vaşinqton görüşündən dərhal sonraya təsadüf etməsi diqqət çəkir. Qriqoryan ABŞ kəşfiyyatına yaxın kadr sayılır və onun "digər yüksək vəzifəli rəsmilərlə görüşləri" həmişə bu kateqoriyadan olur.

Məlumdur ki, İrəvanla Vaşinqton arasında əsas koordinasiya ilə Qriqoryanla Sallivan məsuldur. Paşinyanın açıq-aşkar Rusiya əleyhdarı kimi tanınan Qriqoryanı indiki tarixi şəraitdə Amerikaya yollaması maraq doğurur. İstisna deyil ki, Nikol xüsusilə sülh sazişi baxımından "Rusiya faktoru" ilə hesablaşmağın vacibliyini qarşı tərəfə anlatmaq istəyir. Ancaq belə görünür ki, bu kimi gedişlər ABŞ-da Paşinyan hökumətinə rəğbəti və dəstəyi çətin ki, artırsın. İrəvan hələ də ABŞ-a qarşı Rusiya "kartı"ndan yararlanmağa ümid edir. Amerikalıları inandırmağa çalışırlar ki, Rusiya ilə münasibətlərdə sərt dönüş edə bilməzlər, başqa çıxış yolları yoxdur və bu vəziyyəti Qərbin anlayışla qarşılayıb İrəvandan xüsusilə maddi dəstəyi əsirgəməməsini umurlar.

Amma "Rusiya kartı" ilə şantaj üsulu köhnəlib, əvvəlki effekti vermir. Ehtimal etmək olar ki, bu səfər Bakı-İrəvan və Ermənistan-ABŞ münasibətlərini yenidən təftiş etmək məqsədi daşıya bilər. Maraqlıdır ki, bir neçə gün əvvəl ABŞ Dövlət Departamentinin Sanksiyalar üzrə koordinatoru səfir Ceyms Obrayan Ermənistana səfər edib. Obrayanın Ermənistana səfəri bu ölkənin Rusiyaya sanksiyalardan yayınmaqda kömək etməsinin qarşısının alınması ilə əlaqəlidir. Vaşinqton bir neçə dəfə Ermənistanı Rusiyaya sanksiyalardan yayınmaq üçün yardım göstərməkdə ittiham edib.

Vaşinqton danışıqlarına gəlincə, ABŞ dövlət katibi Entoni Blinken üçtərəfli təmaslarda irəliləyiş əldə olunduğunu bildirsə də, yekun sənədin imzalanması üçün çox işin olduğunu vurğulayıb. Onun sözlərinə görə, razılığa nail olmaq nə qədər yaxın olsa, bəzi hallarda bir o qədər çətinləşir, çünki ən çətin məsələlər sona qalır. Blinken yekun sənədə yeni razılaşdırılmış bəndlərin daxil ediləcəyini də söyləyib. Dövlət katibi bu bəndlərin nədən ibarət olduğunu açıqlamasa da, bunun Bakının Qarabağ erməniləri ilə dialoquna aid olduğunu ehtimal etmək mümkündür. Yeri gəlmişkən, "Daşnaksütyun" Erməni İnqilabi Federasiyası ABŞ-ın paytaxtı Vaşinqtonda "artsax"a dəstək üçün 7 günlük etiraz aksiyası keçirib. Azərbaycan səfirliyinin qarşısından başlayaraq bir həftə davam edən aksiyada anti-Azərbaycan şüarlar səsləndirilib. Bir sözlə, erməni tərəfi ABŞ poliqonunda fəal görünməyə çalışır. Qriqoryanın səfəri hansı nəticələrlə yadda qala bilər?

**Siyasi şərhçi Xəyal Bəşirov Qriqoryanın səfərini təsadüfi saymır. Onun "Yeni Müsavat"a bildirdiyinə görə, ABŞ üçün Cənubi Qafqaz mühüm regiondur:** "Azərbaycanla müzakirələrdə də təhlükəsizlik mövzusu əsas olur. Uzun illərdir ki, Amerika ilə bu sahədə əməkdaşlıq edirik. Ona görə belə bir görüş Bakını narahat etməyə bilməz. Ermənistan uzun müddət bölgədə təhlükəsizliyə təhdid olub, indi də belədir. Bu baxımdan Təhlükəsizlik Şurasının katibi Qriqoryanın səfəri diqqətdə saxlanmalıdır". **Onun fikrincə, səfər təşəbbüsü hansı tərəfdən olub, bunu bilmək vacibdir**: "Əgər xarici işlər nazirləri səviyyəsində bərabərhüquqlu görüşlər keçirilirsə, Azərbaycanın Təhlükəsizlik Şurasının katibi ilə də müzakirələr aparılmalıdır. Niyə birtərəfli qaydada olmalıdır? Eyni zamanda ABŞ Qriqoryanla görüşdə müzakirələr haqda Azərbaycanı məlumatlandırmalıdır. Əks halda, XİN başçılarının görüşlərinə kölgə salınır. Çünki bu görüşdən dərhal sonra Qriqoryan ABŞ-a gedirsə, deməli, birtərəfli yanaşma var".

**Siyasi icmalçı Fuad Əliyev Ermənistan TŞ-nin katibinin gedişini Rusiya ilə əlaqələndirir:** "İrəvan KTMT məsələsində təminat istəyir. Əgər blokdan çıxacaqsa, amerikalılar onları müdafiə etməlidir. Səfərin ikinci səbəbi Ermənistanın NATO ilə yaxınlaşma cəhdləridir. Vaşinqton açıq bildirir ki, rusların hərbi bazasını Gümrüdən çıxarın, hərbçilərin sərhədlərdən uzaqlaşdırın, təhlükəsizliyinə biz zəmanət verək. Xatırlayıram ki, Rusiyanın baş diplomatı Lavrov da belə söyləmişdi. Ancaq çətin məsələdir. Qərbin bölgəyə tam yerləşməsi və Rusiyanı Cənubi Qafqazdan çıxarması üçün möcüzələr baş verməlidir. Hər halda bu strategiya var və Qriqoryan da dəstəyin artırılması üçün ABŞ-a səfər edir". **Təhlilçi səfər çərçivəsində üçüncü amilin Azərbaycanla danışıqlar olduğunu düşünür:** "Qriqoryan amerikalıları inandırmağa çalışacaq ki, Rusiya Azərbaycanın Qarabağdakı addımlarını sükutla qarşılayır. Spiker Alen Simonyan da bugünlərdə açıq formada sülhməramlılardan giley-güzar etmişdi. Yenə Vaşinqtondan daha böyük dəstək gözlənilir. Amma ABŞ balansı pozacaqsa, neytrallıq statusunu Fransa kimi itirəcək, moderatorluq təşəbbüsü Rusiyaya keçəcək".

**Ekspert Qərbin son zamanlar Ermənistan hakimiyyətindən narazı qaldığını fikirləşir:** "Rusiyanın müharibəsində Paşinyan iştirak edir - sanksiyalardan yayınmağa dəstək verməklə, Avropadan mallar sifariş edib Rusiya satmaqla. Qərbdəki tərəfdaşları bunu görürlər. Bayden isə Ukraynaya humanitar yardıma görə Azərbaycana minnətdarlıq edib. O cəhətdən düşünmürəm ki, Qriqoryan nəsə əldə edə biləcək. İrəvanın əsas arzusu Rusiyadan uzaqlaşmaqdır. Bu, səfərdə əsas müzakirə mövzularından biri olacaq".

**❑ Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**

# "Birinci müharibədə qalib idik" deyənlərə Paşinyandan ağır ittiham

**Ermənistanın baş naziri Nikol Paşinyan bəyan edib ki, Birinci Qarabağ müharibəsindən sonra Azərbaycanı iqtisadi rəqabətdə məğlub etmək mümkün olmadı.**

Paşinyan bunu bir sıra arqumentlərlə əsaslandırıb: "1994-cü ildə atəşkəs elan olunanda müharibədə Ermənistan tərəfinin qalib gəldiyi, Azərbaycan tərəfinin isə uduzduğu qeyd edildi. Bundan sonra 20 il ərzində Azərbaycan əhalisi, demək olar ki, 2 dəfə artdı, Ermənistanın əhalisi xeyli azaldı. Bəs qələbə kimin oldu, niyə bu qələbə nəticəsində Ermənistanın əhalisi artmadı, əksinə, azaldı, niyə bu qələbə nəticəsində Azərbaycanı iqtisadi rəqabətdə məğlub etmək mümkün olmadı? Bu, təhlükəsizliklə, hərbi büdcə ilə bağlıdır. Biz də bilirik ki, 1997-1998-ci illərdə Qarabağ məsələsi daxili siyasi aspektdə çox önəmli idi".

"Regionda enerji və nəqliyyat layihələrindən kənarda qalaraq böyük həcmdə tranzit gəlirlərindən məhrum oldu". Sözügedən məsələ üzrə "Bakı-Xəbər"ə açıqlama verən **siyasi ekspert Elşad Həsənov** bununla bağlı bir sıra məqamlara toxunub: "Bəli, 1994-cü ilin mayında atəşkəslə bağlı razılaşma əldə olunanda biz döyüşü uduzan tərəf idik. Ancaq Azərbaycan əslində Ermənistana yox, Rusiyaya uduzdu. Çünki Birinci Qarabağ müharibəsində bilavasitə Rusiyanın yardımı hesabına Ermənistan Azərbaycan ərazilərini işğal etdi. Azərbaycanın neft sektoruna yatırılan sərmayələr iqtisadiyyatın digər sahələrinin də inkişafına təkan verdi. Neft gəlirləri hesabına iqtisadiyyatda davamlı inkişaf təmin edildi. Böyük layihələr həyata keçirildi. Ordu quruculuğuna xüsusi diqqət yetirildi. İlham Əliyev prezident seçiləndən sonra ölkədə inkişaf daha da gücləndi. Ölkə başçısı müstəqil iqtisadi siyasətə nail oldu. Azərbaycan regionun enerji habına çevrildi. 90-cı illərin əvvəllərində Azərbaycan əhalisinin sayı 7 milyon nəfər idisə, hazırda ölkə əhalisinin sayı 10 milyon nəfərdən çoxdur. Ancaq 90-cı illərdə 3,5 milyon nəfər olan Ermənistan əhalisi indi 2,9 milyon nəfərdir. Orada əhalinin sayı artmayıb, tam əksinə, 600 min nəfər azalıb. Bu isə o deməkdir ki, ərazilərimizin işğalı Ermənistana xoşbəxtlik yox, bədbəxtlik gətirdi. Əhali ölkəni tərk etdi və s. Ona görə ki, Ermənistan haqsız tərəf idi. Orada Qarabağ dalğasında hakimiyyətə gələn Köçəryan-Sərkisyan quldurcasına Ermənistanı taladılar. Elə hesab edirdilər ki, müharibədə qazandıqları üstünlüklər daimi olacaq. Ermənistana xarici sərmayə gəlmədi. İşğal səbəbindən Ermənistan regionda enerji və nəqliyyat layihələrindən kənarda qalaraq böyük həcmdə tranzit gəlirlərindən məhrum oldu. Bütün bu deyilənlərin fonunda, Ermənistanın Azərbaycana bütün sahələrdə uduzması qaçılmaz idi".

YENİ MÜSAVAT
N 112 (8248) 5 iyul 2023

# Kreml üçün Haaqada məhkəmə qurulur - bəs erməni hərbi caniləri?

## Hüquqşünas: "İşin ləng getməsi təəssüratının yaranması da beynəlxalq qurumların məsələlərə ikili standartlarla yanaşmasından irəli gəlir"

**Niderlandın Haaqa şəhərində Rusiyanın Ukraynaya qarşı müharibəsini araşdıran Beynəlxalq Büro yaradılır. Komissiyaya Ukrayna, Avropa İttifaqı (Aİ), ABŞ və Beynəlxalq Cinayət Məhkəməsinin (ICC) prokurorları daxil olacaq.**

Ukraynaya qarşı müharibəyə görə Kreml rəsmilərini məsuliyyətə cəlb edəcək Xüsusi Tribunal yaradılmazdan əvvəl aralıq addım kimi bu mərkəz araşdırma aparacaq və sübutlar toplayacaq.

Bu təşəbbüs Rusiya ilə Xüsusi Tribunalın yaradılması istiqamətində ilk addımdır. Əlbəttə ki, müharibə cinayətlərinin araşdırılması və heç olmasa günahkarların adlarının açıqlanması tarix üçün çox mühümdür. Amma 30 il torpağı işğala məruz qalan, əhalisi qaçqın vəziyyətinə düşən və əlbəttə ki, birbaşa müharibə cinayətləri ilə üzləşmiş (təkcə Xocalını yada salmaq kifayətdir) Azərbaycana münasibətdə dünyadan bu ədaləti görmürük. 44 günlük Vətən müharibəsində də işğalçı dövlət cinayətkar mahiyyətinə uyğun olaraq dinc insanları, yaşayış məntəqələrini, mülki infrastrukturu hədəfə alıb, qadağan olunmuş silahlardan istifadə edib. Bunun nəticəsində mülki şəxslər həlak olub, çox sayda insan isə yaralanıb. Prezident İlham Əliyev də dəfələrlə Azərbaycana qarşı müharibə cinayətlərindən danışıb, hətta konkret adlar da çəkib. "Onlar müharibə caniləridir. Gəncəni ballistik raketlə atəşə tutmaları, Bərdə və Tərtər şəhərlərinin kasetli və fosforlu sursatla atəşə məruz qalması, işğal edilmiş ərazilərdə qanunsuz məskunlaşdırma - bunların hamısı hərbi cinayətlərdir və onlar bununla fəxr edirdilər. Sərkisyan və Köçəryan hərbi cinayətkardırlar. Biz artıq şəhərlərimizə qarşı törədilən əməllərlə bağlı hüquqi proseдurlara başlamışıq. Biz beynəlxalq tərəfdaşlarımızı dəvət etmişik ki, mülki əhalimiz, infrastrukturumuz, dini və mədəni abidələrimizə dəymiş ziyanın müvafiq təhlili aparılsın. Hər bir şey sənədləşdiriləcək və biz bu cür şəraitə uyğun olaraq zəruri addımlarımızı atacağıq" - deyə, Prezident çıxışlarının birində vurğulayıb.



Qeyd edək ki, Azərbaycan dövləti Ermənistanın bu cinayətlərinin dünyada ifşa olunması istiqamətində ardıcıl olaraq tədbirlər həyata keçirməkdədir. Hazırda Ermənistanın törətdiyi hərbi cinayətlər sənədləşdirilir. Belə ki, Azərbaycan artıq törədilən cinayətkar əməllərlə bağlı hüquqi prosedurlara başlayıb. Mülki əhali, infrastruktur, dini və mədəni abidələrə dəymiş ziyanın müvafiq təhlili aparılır. Hər bir fakt sənədləşdiriləcək və buna uyğun olaraq zəruri addımlar atılacaq. Eyni zamanda sanki bu işdə bir az ləngimə də var. Həmçinin beynəlxalq təşkilatların ikili standartları hələ də davam edir. Bəs nə vaxtadək davam edəcək?

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə "Yeni Müsavat"a bildirdi ki, Rusiyanın Ukraynaya qarşı apardığı müharibə zamanı törədilmiş müharibə cinayətlərinin, beynəlxalq hüquqa zidd addımların araşdırılması ilə bağlı Xüsusi Büronun yaradılması gözlənilən idi**: "Faktların toplanması və Beynəlxalq Cinayət Məhkəməsinə təqdim edilməsi üçün bu büro yaradılıb. Müharibənin başlanmasına əmr verən və həmin cinayətlərə rəhbərlik edən şəxslərin məsuliyyətə cəlb edilməsi üçün xüsusi ittiham hazırlanacaq və Beynəlxalq Cinayət Məhkəməsinə veriləcək. Artıq bu real bir mövqe, real işdir. Beynəlxalq Konvensiyaların tələbindən irəli gələn işdir. Biz bununla razılaşırıq, belə də olmalı idi. Ancaq beynəlxalq hüququn pozulmasının qarşısını almağa borclu olan beynəlxalq təşkilatlar 30 il ərzində Ermənistanın Azərbaycan xalqının hüquqlarını pozmasına, beynəlxalq konvensiyaları ayaqları altına almasına göz yumublar. Təəssüf ki, bu gün də Ermənistanın cinayətlərinə göz yumulur, ikili standartlar davam etdirilir. Xocalıda, Qaradağlıda, Başlıbeldə, Ağdabanda və digər kəndlərimizdə ermənilərin həyata keçirdiyi müharibə cinayətlərinə göz yumulub. Ona görə də Ermənistan daha da azğınlaşıb. İkili yanaşma davam etməkdədir və belə görünür ki, davam edəcək. Məsələ burasındadır ki, ikili yanaşma beynəlxalq təşkilatların özünün nüfuzuna zərbə vurur. Azərbaycan cəmiyyəti və dövləti beynəlxalq hüququn pozulmasının qarşısını almaq funksiyasını üzərinə götürdüyünü elan edən beynəlxalq təşkilatlardan məsuliyyətlərini dərk etməyi gözləyir. Azərbaycan dövləti ədalətin yerini tapması, Azərbaycan xalqına qarşı cinayətlər törətmiş ermənilərin beynəlxalq məhkəmələr qarşısına çıxarılması üçün işlər aparır. Xarici mütəxəssislər də bu işə cəlb edilib. İşin ləng getməsi təəssüratının yaranması da beynəlxalq qurumların məsələlərə ikili standartlarla yanaşmasından irəli gəlir. Lakin gec-tez haqlı tərəf olan Azərbaycan öz istəyinə nail olacaq. Ruhdan düşmək lazım deyil".

**❑ Etibar SEYİDAĞA**
**"Yeni Müsavat"**

# Putin və dəstəsi necə mühakimə olunsun?

## "Vaşinqton Post": "Müstəntiqlər hərbi cinayətlərlə bağlı on minlərlə şikayəti araşdırır"

**"Vaşinqton Post" qəzetində "Rusiya hərbi cinayətlərinə görə məsuliyyətə cəlb edilməlidir" başlıqlı redaksiya məqaləsi dərc olunub. Novator.az yazını ingiliscədən çevirib təqdim edir.**



Məqalədə deyilir ki, Rusiyanın Ukraynada yol verdiyi cinayətlərin miqyası ağlasığmazdır. Cinayətlər mülki infrastrukturun kütləvi dağıdılmasından tutmuş (xüsusilə 2022-ci ilin payızından elektrik stansiyalarına endirilən zərbələri, 2023-cü ilin iyununda Kaxovka Su Elektrik Stansiyasının partladılmasını yada salın) dinc əhalinin durmadan təcavüzə məruz qalmasınadək mülki həyatın bütün sahələrini əhatə edir. Bunların hamısı - istər dinc əhaliyə qarşı zorakılıq, istərsə mülki infrastruktura ziyan vurulması - beynəlxalq hüquqla yasaqdır.

"ABŞ-ın beynəlxalq cinayət hüququ məsələlərinə dair xüsusi tapşırıqlar səfiri Bet Van Şaakın sözlərinə görə, müstəntiqlər ümumilikdə hərbi cinayətlərlə bağlı on minlərlə şikayəti araşdırmaqla məşğuldur.

BMT-nin 2023-cü ilin iyun ayında açıqladığı yeni hesabata əsasən, rus qoşunları Ukrayna paytaxtı Kiyev ətrafından geri oturdulandan sonra Buça şəhərində dinc ukraynalıların kütləvi qətlə yetirildiyi bəlli olub, məzarlıqlar aşkar edilib. Buçada 450-dən çox mülki şəxsin meyiti tapılıb. Rəsmilərin sözlərinə görə, onların əksəri işgəncə ilə, döyülərək, yaxud güllələnərək öldürülüb.

2023-cü ilin iyun ayının ortalarında BMT-nin işgəncələr üzrə xüsusi məruzəçisi, avstraliyalı hüquqşünas Elis Cill Edvards yazıb ki, cinayətlərin miqyası, koordinasiyalı şəkildə planlaşdırılıb həyata keçirilməsi bu əməllərin dövlət siyasətinin tərkib hissəsi olduğunu, ali rəhbərliyin birbaşa göstərişi, yaxud susqun razılığı ilə reallaşdırıldığını göstərir. Xanım Edvards rusların əlinə düşən ukraynalı mülki şəxslərə və hərbçilərə divan tutulduğunu, elektrik cərəyanı ilə işgəncə verildiyini, başına torba keçirilib döyüldüyünü, edam olunduğunu, yaxud edamla hədələndiyini vurğulayıb.

2022-ci ilin payızında BMT-nin sifarişi ilə qurulan müstəqil beynəlxalq komissiyanın Ukraynadan hazırladığı hesabatı oxuyanda da adamın ürəyi dağlanır. Hesabatda Rusiya hərbçilərinin işğal etdiyi ərazilərdə məhkəmə hökmü olmadan mülki əhaliyə qarşı həyata keçirilən edamlar, işgəncələr, zorlamalar, o cümlədən digər cinsi zorakılıqlar ətraflı təsvir edilib. Qurbanlar arasında azyaşlılar da var, yaşlılar da. Lap yaşlı adamlar da var. Onların ifadələrini oxuyanda adamın tükləri biz-biz olur. 2022-ci ilin martında, Kreml Ukraynaya total hərbi hücuma göstəriş verəndən bir neçə həftə sonra iki rus əsgəri Kiyev yaxınlığında evə girərək 22 yaşlı qadını dəfələrlə zorlayıb. Onlar qadının ərini də seksual xarakterli zorakılığa məruz qoyublar və ər-arvadı hamının gözü qabağında cinsi əlaqəyə girməyə məcbur ediblər. Sonra əsgərlərdən biri ailənin 4 yaşlı qızını zorlayıb, onunla qeyri-ənənəvi formada cinsi əlaqədə olub. Əslində Putinin və onun ətrafına yığdığı dəstənin cinayətləri daha böyükdür: onlar müharibəyə başlayıblar! Bütün sonrakı vəhşiliklər isə məhz müharibə qərarının nəticəsidir. Putin və dəstəsi İkinci Dünya müharibəsindən sonra Nürnberq prosesinə çəkilən nasist hərbi canilər kimi təcavüzkarlıq cinayətində mühakimə olunmalıdır. Kremldəkilərə toxunmadan, yalnız ayrı-ayrı əsgər və zabitləri məhkəmə qarşısına çıxarmaqla ədalət mühakiməsi qurmaq mümkün deyil. Avropa hökumətləri, son zamanlar həmçinin ABŞ Prezidenti Cozef Baydenin administrasiyası bu yanaşmanı dəstəkləyir. Ancaq planın hansı tribunal vasitəsilə həyata keçiriləcəyi hələ dəqiqləşməlidir. Həmin tribunalın üzərinə Putini və onun əlaltılarını da mühakimə etmək məsuliyyəti düşür. Bunun isə mexanizmi razılaşdırılmalıdır, mühakimə lap qiyabi şəkildə də olsa aparılmalıdır.

Əlbəttə, Putin və dəstəsinin tezliklə məhkəmə qarşısında oturacağına inanmaq olmur. Amma 2023-cü il iyunun 24-də Rusiyanın "Vaqner" adlı bədnam özəl hərbi birləşməsinin qaldırdığı bir sutkalıq hərbi qiyamın Putin hakimiyyətini necə silkələdiyini görəndə düşünürsən ki, məhkəmə perspektivi, deyəsən, o qədər də qeyri-real deyil. Müttəhimlər kürsüsündə oturanadək çox özündənrazı qoluzorlular, diktatorlar toxunulmaz görünüb, onların cəzasız qalacağı güman edilib. Rusiya liderini ən böyük cinayətinə - bunca şəhəri, qəsəbəni, kəndi viran qoyan, bunca insan ömrünü məhv edən əsassız müharibəyə qərar verdiyinə görə məsuliyyətə cəlb etməyin vaxtıdır.

YENİ MÜSAVAT
N 112 (8248) 5 iyul 2023

**Qarabağdakı separatçı rejim və "siyasi qüvvələr" arasında böhran getdikcə dərinləşir. Terrorçubaşı Araik Arutyunyan verdiyi açıqlamalarda "nala-mıxa vursa da" nəticə etibarilə əvvəlki radikal mövqeyində qalır, Bakı-Xankəndi danışıqları üçün şərtlər irəli sürməkdə davam edir.**



# Xankəndidə "Bakı ilə danışıqlar" mövzusunda didişmə

## Təlxək yığını üçün halqa daralır, dialoqdan başqa çarə qalmadığını etiraf edirlər; **analitik:** "Separatçılar dialoqa razılaşsalar da, bu, tərk-silah anlamına gəlməyəcək"

Hazırda qondarma "Vahid Vətən" partiyasına rəhbərlik edən Samvel Babayan "qarşılıqlı etimad yaratmağa çalışmaq üçün" Xankəndi və Bakı arasında birbaşa danışıqları dəstəklədiyini deyib. **Sitat:** "Stepanakert (Xankəndi - red.) və Bakı arasında birbaşa danışıqlara başlamaq, qarşılıqlı etimad yaratmağa çalışmaq, müxtəlif sadə məsələlərdə razılıq əldə etmək lazımdır, insanlar sakit və normal yaşamalıdır. Bundan sonra ikinci mərhələyə - status və digər qalan məsələlərə keçərik", - deyə Babayan "Radio Azatutyun"un efirində bildirib.

"Qarşılıqlı etimad yoxdursa, sizi inandırıram ki, biz 30 il danışıqlar apardıq və heç nəyə nail olmadıq. Daha 30 il danışıqlar aparsaq da, heç nəyə nail olmayacağıq. Azərbaycan nə qədər Rusiyanı buradan mümkün qədər tez çıxarmağa çalışsa da, - ki, onun məqsədi budur, - qarşılıqlı etimad olmasa, buna nail olmayacaq", - deyə o, sözünə davam edib. **Babayanın fikrincə, Bakının məqsədi "bizim bir-birimizlə dərhal ikitərəfli münasibət qurmağımızdan ibarətdir":** "Mən "artsaxın" ikinci siyasi qüvvəsi olaraq buna etiraz etmirəm. Amma ilk növbədə hansı maddələr üzrə danışıqlar aparacağımıza dair sənəd hazırlamalıyıq, sonra digər məsələlərə keçməliyik. Düşünürəm ki, onların bütün addımları birbaşa danışıqlar prosesinə nail olmağa yönəlib".

Beləliklə, Babayan separatçı rejimin Bakı ilə danışıqlar üçün siyasi şərt irəli sürən, daha dəqiq isə Qarabağın ermənilər məskunlaşan hissəsinin Azərbaycanın tərkibinə daxil olmasını qəti istisna edən rəhbərlərindən bir qədər fərqli mövqe nümayiş etdirib. Rəsmi Bakı Qarabağ erməniləri ilə "status" haqqında bütün danışıqları qəti şəkildə rədd edir və yalnız regionun Azərbaycan dövlətinə və cəmiyyətinə reinteqrasiyası məsələlərini müzakirə etməyə hazırdır. Babayan 1990-cı illərdə Qarabağda erməni silahlı qüvvələrinə rəhbərlik edib və Azərbaycanın şəhərlərinin və rayonlarının işğalında iştirak edib. Separatçılar arasında daxili mübarizə nəticəsində vəzifədən məhrum edilib və həbs edilib, azad edildikdən sonra Ermənistana gedib. 2016-cı ildə Qarabağa qayıtdıqdan sonra fəal siyasi fəaliyyətlə məşğul olmağa başlayıb. Babayanın bu cür açıqlamaları yeni deyil, o, bir müddət əvvəl də "kim Bakı ilə danışıqlar istəmir, erməni düşmənidir" demişdi. Onun bu mövqeyi Araiki dəyişmək istəyən qüvvələrə "mən buradayam" mesajıdır, yoxsa ermənilər üçün həqiqi çıxış yolunun Bakı ilə masaya oturmaq olduğunun fərqindədir?

**Analitik Elxan Şahinoğlu rəsmi Bakının Qarabağ erməniləri ilə dialoqu davam etdirmək istəyində olduğu qənaətindədir:** "İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan təmsilçiləri ilə Qarabağ erməniləri arasında bir neçə dəfə dialoq olub. Müzakirələr rusiyalı hərbçilərin vasitəçiliyi ilə Qarabağ ərazisində baş tutub. Prezident Administrasiyası bir neçə dəfə açıqlama yayaraq müzakirəni davam etdirmək üçün Qarabağ ermənilərinə Bakıya gəlməyi təklif edib. Birincisi, Qarabağ erməniləri Bakıya gəlməkdən ona görə imtina ediblər ki, bu onların Azərbaycanın ərazi bütövlüyünü qəbulu anlamına gələcək. İkincisi, Bakıdakı görüşdə Rusiya hərbi kontingentinin hərbçiləri olmayacaq, ermənilər isə rusiyalı vasitəçilər olmadan Azərbaycan rəsmiləri ilə görüşdən qorxurlar. Buna baxmayaraq, Qarabağ erməniləri məcbur qalıb Bakıya gələcəklər. Çünki Qarabağda separatçıların nəzarət etdiyi hissədə iqtisadi və sosial vəziyyət ağırlaşıb".

**Onun sözlərinə görə, Xankəndidə Qarabağ separatçılarının "dövlət naziri" Qurgen Nersisyan "hökumətin" toplantısında qəbul edilən qərarları elan edib:** "Qarabağdakı ailələrə şəkər tozu və yağ məhsulları xüsusi yerlərdə paylanacaq, yanacaq çatışmazlığı olduğundan ictimai nəqliyyatın və xidməti maşınların hərəkəti məhdudlaşdırılacaq, bu səbəbdən "dövlət idarəsinin" işçiləri evlərindən çalışacaqlar. Qarabağ separatçıları anlayırlar ki, onlar üçün halqa daralıb, Rusiya hərbi kontingenti iki ildən sonra bölgəni tərk edəcək, Ermənistan Qarabağ separatçılarına dəstək verə bilməyəcək, sərhəd Azərbaycanın nəzarətindədir. Belə olan halda Qarabağ ermənilərinin yeganə alternativi Azərbaycan təmsilçiləri ilə dialoqu davam etdirmək və Bakının şərtlərini qəbul etmək olacaq. Qarabağ separatçılarının lideri Araik Arutyunyan son çıxışlarının birində Bakının tələbini səsləndirib: "Bakı bizimlə ancaq Qarabağın və ermənilərin Azərbaycana reinteqrasiyasını müzakirə etmək istəyir. Bu Bakının tələbidir". Araik Arutyunyan Bakının Qarabağda qondarma qurumun buraxılması və quruma bağlı olan qeyri-qanuni silahlı birləşmələrin tərk-silah olunmasını tələb etdiyini də xatırladıb".

**E.Şahinoğlu yada salır ki, Araik Arutyunyan ötən ilin oktyabr ayında Ermənistan televiziya kanalına verdiyi müsahibədə də onların Bakı ilə danışıqlardan başqa alternativlərinin olmadığını bildirmişdi:** "Bir il ərzində erməni separatçılarının durumu daha da ağırlaşıb. Ona görə də Araik Arutyunyan Bakı ilə dialoqu qəbul etmək barədə düşünür. Qarabağda ermənilər arasında Bakı ilə dialoqun vacibliyini deyən başqaları da var. Qarabağ separatçılarının "təhlükəsizlik şurasının keçmiş katibi" və hazırda "vahid vətən partiyasının" rəhbəri Samvel Babayan da Bakı ilə dialoqun tərəfdarıdır. O, bununla bağlı bir neçə dəfə çağırış edib. Aydındır ki, Qarabağ separatçıları Bakı ilə dialoqu davam etdirməyə razılaşsalar da, bu onların öz istəkləri ilə tərk-silah olunması və Azərbaycan qanunları ilə yaşamağa hazır olmaları anlamına gəlməyəcək. Onlar müqavimət göstərməyə çalışacaqlar. Ancaq separatçılar onu da anlayırlar ki, zaman onların əleyhinə işləyir. Qarabağın əsas kommunikasiya xətləri Azərbaycan Ordusunun nəzarəti altındadır, keçmiş illərdə olduğu kimi, Laçın yolundan Ermənistandan Qarabağa silah və hərbi texnika keçirmək mümkün deyil. Bu vəziyyət Azərbaycanın Qarabağın tamamını nəzarət altına alacağı günü yaxınlaşdırır. Təsadüfi deyil ki, Azərbaycanda "Qisas-3" əməliyyatı barədə açıqlamalar çoxalıb, hətta dövlət televiziyasının internet saytında bu mövzu ilə bağlı sorğu da keçirilir. Bu əməliyyat Azərbaycan ərazisində separatizmin sonunu gətirməlidir".

**Siyasi şərhçi Asif Nərimanlıya görə, bu məsələdə hər şey aydındır:** "Xankəndidəki separatçıların başçısı Araik Bakının onlardan nələr tələb etdiyini açıqlayıb: inteqrasiyadan başqa heç bir mövzu müzakirə edilə bilməz. Araik deyir ki, iki il cəhdlər edib, lakin heç bir nəticəsi yoxdur, Bakının tələbi konkretdir; qondarma "müdafiə ordusu" buraxılmalı, silahlı dəstələr tərk-silah edilməli, təslim olmalıdır, "dövlət idarəetmə sistemi" - separatçı rejim ləğv edilməlidir. Bundan sonra onların kommunal xidmətləri təmin ediləcək və bu, Azərbaycan vətəndaşlığını qəbul etdikləri halda olacaq. Çünki rəsmi Bakının Qarabağ iqtisadi rayonu ilə bağlı proqramı bəllidir, Araikin dedikləri də bunun "ikinci mənbədən" təsdiqi deməkdir. Hərçənd Araik təslim olmaq niyyətində olmadıqlarını da deyir, "özünümüdafiəyə və güclü olmağa" çağırır. Onların təslim olmaması Bakının proqramında dəyişikliyə səbəb olmayacaq, sadəcə, silahlı dəstələrin tərk-silah edilməsini, separatçı rejimin ləğv olunmasını ordu həyata keçirəcək".

**Ekspert Züriyə Qarayevanın bildirdiyinə görə, qisasımızın qısa olması qəzəbimizi maksimum tənzimləməyə çalışmağımızdandır:** "Onlar silaha əl atmaqla dünyaya nəsə göstərməyə çalışsalar da, biz Vaşinqtona və digər güclərə göstəririk ki, əlisilahlı ermənilər bölgədə olduğu müddətdə bu görüşlərin heç bir əhəmiyyəti qalmır. Əhəmiyyətini artırmaq üçün bizim sahədə "işlər" görməyimizə ehtiyac var. Bu "işlərin" silahsız ermənilərin hüquq və təhlükəsizliyi məsələsinə heç bir aidiyyəti yoxdur. Azərbaycan Ordusu Qarabağdakı silahlı terrorçulara qarşı əməliyyat keçirərək, separatçı rejimi gorbagor edəcək. Separatçılar insan dilindən anlamasalar, "Qisas"ın davamını gətirib, statusu gorbagor (!) etdiyimiz kimi, onların atributlarını da, silahlılarını da cəhənnəmə vasil edəcəyik".

❑ **Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 112 (8248) 5 iyul 2023



# Telefon zəlzələsi

Zamin HACI
zaminhaci@gmail.com

**2000-ci ildə, noyabrda Bakıdakı zəlzələni çox yaxşı xatırlayıram. Hətta zəlzələ anında o zamanın çox populyar telekanalı ANS-də, "Nəzər nöqtəsi" verilişində Səyavuş Novruzovla Araz Əlizadənin debatda bir-birini qırdığı da yadımdadır. Odur-budur, mən televizora baxmağa nöqtə qoymuşam.**

Bu dəfə gecə 00.01-də (bir saniyə gecikməsə çox dəqiq zəlzələmiz olardı) zəlzələ olmasını isə heç duymadım. Oyaq idim, kino izləyirdim. O baxımdan, gecə saat 2-nin yarısında mobil telefonuma baxıb zəlzələ xəbərdarlığını görəndə, sonra internetdə camaatın Xırdalanda küçələrə töküldüyünə baxanda çox təəccüblənmişdim.

Güman edirəm zəlzələnin "şiddətini" camaata elə o naməlum ünvanlı telefon xəbərdarlığı agah edibdir, yoxsa heç çoxunun xəbəri olmazdı. Bu xəbərdarlığı kim edib, hansı texnologiya ilə belə alınır, şəxsən mənə qaranlıqdır. Güman edirəm hökumət də bunun üzərində düşünür, çünki ara yerdə gecə saat 1-də sərbəst toplaşma haqda qanun yerlə bir olmuşdu, millət hamısı Bakı ŞİH-dən Zaur Ramazanovun imzası və möhürü olmadan küçələrə çıxmışdı.

Zəlzələ xəbərdarlığı Milli Seysmoloji Mərkəzimizin qurğuları ilə ölçülüb telefonlara ötürülürsə, buna da şübhələrim var. Nəyə görə? Çünki üstündən 1 sutkaya yaxın vaxt keçsə də, mən hələ gecəki zəlzələnin Rixter şkalası üzrə neçə ballıq olduğunu öyrənməkdə acizəm. Bir elmi mərkəz eyni zamanda bir neçə bal açıqlaya bilməz axı. Hətta bir saytda xəbərin içində 4 rəqəm yazılmışdı: 5,6 , 5,7 , 5,9 və 6! "5-6 bal gücündə zəlzələ olub" demək çağdaş texnologiyalar dövründə tragikomediyadır. O cümlədən bu açıqlamaları yayan alimlər və jurnalistlər hətta 5,6 bal zəlzələ ilə 5,7 bal zəlzələ arasında böyük dağıdıcı fərq olduğunu bilmirmi?

Zəlzələnin episentrinin yaşayış məntəqələrindən nə qədər yaxın-uzaq olması, neçə kilometr dərinliyə düşməsi də dağıtma gücünə təsir edir, lakin "alimlərimiz" bu istiqamətdə xalqa açıqlamalar verməyə tələsmir. Niyə versinlər? Alimlər ac qalanda, Ramiz Mehdiyevlə boğuşanda həmin xalqın çox vecinəydi... Qoy indi nigaran qalıb yata bilməsinlər. Hərçənd xalqı oyaq buraxmağın özündə təxribat, ekstremizm, dövlət çevrilişi elementləri vardır, hətta deyərdim mövcuddur!

Təbii ki, 2000-ci ilin noyabr zəlzələsi indikindən qat-qat güclü idi, binalar az qala rəqs eləmişdi, divarlar uçmuş, binalar çatlamışdı, indi isə hərədə bir kamera olsa da ortada naməlum adresli tərpəşən lüstrdən başqa heç zad yoxdur. Sanki zəlzələmiz müxalifət partiyalarımızın bəyanatları kimidir - guruldayır, yağmır. Əlbəttə, yağmasa yaxşıdır, naşükür olmayaq. Görə-görə gəlirik. Yenə bunlar yeyib doyublar.

Naşükür və müxalifət yazdım, xatirimə gəldi, 2000 zəlzələsi parlament seçkilərindən az sonraya təsadüf etdiyindən uca millətimiz seçki əhvalatlarını da tezliklə yaddan çıxardıb Allaha dua eləmişdi. "Buna da şükür, yeri-göyü qəzəbləndirməyək" demişdilər. İndi isə güman etmək olar yerin altındakı öküzü Gədəbəy olayları hirsləndirib. Ağbirçəyin üzünə qaz vurarsan, nəticəsi belə alınar. Bu haqda yüz faiz hansısa hədisdə var, tapanda burada yazaram, bizimlə qalın.

Sonda dostum Məğrub Bədəlsoydan bir əhvalat. Elə hədis kimi şeydir: "Rəhmətlik Molla Nəsrəddin qonaq gedir, balla çay qoyurlar süfrəyə, Molla balı qaşıqlayır, bir-iki, ev yiyəsi dözmür, deyir balı çox yemək ürəyə ziyandır. Molla qayıdır ki, baxır kimin ürəyinə".



# Ağ Ev Azərbaycandakı etirazları görməzdən gəlir - səbəb

## Yeganə Hacıyeva: "Sərhəddə bu cür zavod tikilməsində məqsəd iki ölkə arasındakı münasibətləri korlamaqdır"

**Azərbaycan Qeyri-Hökumət Təşkilatlarının Hasilat Sənayesində Şəffaflıq koalisiyası Ermənistanda Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd Arazdəyən (Yerasx) yaşayış məntəqəsində iri metallurgiya müəssisəsinin tikintisi ilə bağlı mövqe sənədi yayıb.**

Sənəddə Ermənistan İqtisadiyyat Nazirliyinin məlumatlarına istinadən sənəddə qeyd olunur ki, 16500 kvadratmetr sahəni əhatə edəcək müəssisədə hər il 180 min ton metal məhsul istehsal olunacaq.

"Metallurgiya müəssisələri müxtəlif emalatxanalardan və çox vaxt daha kiçik zavodlardan ibarət mürəkkəb istehsal kompleksləridir. Metallurgiya müəssisələrində texnoloji proseslər qazların, tozun, şlakların, tullantı sularının, zəhərli kimyəvi maddələrin və digər emissiyaların böyük miqdarda buraxılması ilə müşayiət olunur.

Metallurgiya zavodları torpaq, su və hava çirkliliyinin ağır emissiyalarının mənbəyidir. İstehsal bitdikdən sonra da ətraf mühitə mənfi təsir göstərə bilərlər. Yığılmış tullantılar, xüsusilə lil, şlak və tozlar, kimyəvi qazlar, kimyəvi maddələrin qalıqları illər uzunu ətraf mühiti çirkləndirən maddələr kimi qalır. İstehsal prosesində filiz hasilatı, nəqli, əzmə və xırdalama, ələmə, flotasiya, maqnit ayırma, yuyulma və s. kimi çoxsaylı texnoloji əməliyyatların cəlb edilməsi ilə metal komponentlərin və birləşmələrinin ətraf ərazilərdə uzunmüddətli ekoloji problemlər əmələ gəlməsi ilə müşayiət olunur", - sənəddə deyilir.

Qeyd olunur ki, Naxçıvanla sərhədin 800 metrliyində tikiləcək bu metallurgiya zavodunun zəhərli kimyəvi tullantıları bölgədəki ekosistemə böyük zərbə vura bilər və tullantıların Araz çayına axıdılması riski həm çaydakı canlı aləm, həm də Arazın suyundan suvarma üçün istifadə edilən geniş təsərrüfatlar üçün həyəcan siqnalıdır.

Koalisiya xatırladır ki, Ermənistanın digər iri mədən müəssisələri - Qacaran mis-molibden zavodu və Qafan filiz emalı kombinatının yüksək dərəcədə çirklənmiş kimyəvi tərkibli istehsalat suları uzun müddət Araz çayını və Oxçuçayı intensiv şəkildə çirkləndirməklə Azərbaycanın ekoloji mühitinə ciddi mənfi təsir göstərir.

Sənəddə deyilir ki, Azərbaycan tərəfi ilə razılaşdırmadan sərhəddə belə bir müəssisənin tikintisi "Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" 1991-ci il Espo Konvensiyanın kobud şəkildə pozulmasıdır. Azərbaycan və Ermənistan həmin konvensiyanın tərəfləridir və Espo Konvensiyasından irəli gələrək, bu zavodun ətraf mühitə təsirinin qiymətləndirilməsi işi aparılmalıdır.

Koalisiya ABŞ hökumətini Arazdəyəndə iri metallurgiya zavodu tikməyə hazırlaşan, ərazisində qeydiyyatda olan şirkəti məsuliyyətli davranışa dəvət etməyə, onun qanunsuzluqlarına göz yummamağa çağırır. Amerika Birləşmiş Ştatları rəsmiləri, o cümlədən Azərbaycandakı və Ermənistandakı ABŞ səfirlikləri susmamalı, məsələyə aydın münasibət bildirməlidirlər.

Xatırladaq ki, Ermənistan Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd bölgədə və Türkiyə ilə sərhədə çox yaxın ərazidə - Arazdəyəndə ABŞ sərmayəsi ilə iri metallurgiya zavodu inşa etməyə hazırlaşır. Vaxtilə Arazdəyən-Culfa-Ordubad-Meğri-Horadiz xətti üzrə Araz çayı boyunca dəmir yolu işlək olub. Ərazidə zavodun tikintisinə 70 milyon dollar Amerika sərmayəsinin qoyuluşu nəzərdə tutulur.

Bəs ABŞ niyə Azərbaycandakı etirazları görməzdən gəlir? Bu aşkar ekoloji cinayətə niyə şərik olurlar?

**Politoloq Yeganə Hacıyeva mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb:** "Ermənistan xarici siyasət xəttini ölkəyə investisiyanın cəlbi istiqamətində yeni strategiya ilə işləməklə tutub və bununla bağlı istər Avropa, istərsə də ABŞ-dan dəstək alıb. Ermənistan bunu onunla əsaslandırır ki, 44 günlük müharibə zamanı bəzi amillər dəyişib, ölkə iqtisadiyyatı çöküb, infrastruktur dağılıb, əhali bundan narazıdır və sairə. Konkret olaraq bu fikirlər Nikol Paşinyanın xarici investisiyanın cəlb olunması ilə bağlı arqumentlərdir. Oxşar arqumentləri Avropa Birliyi-Ermənistan arasındakı çıxışlar zamanı, həmçinin ABŞ və Ermənistan biznes dairələrinin görüşü zamanı səsləndirmişdi.

ABŞ niyə Azərbaycanla sərhəddə ekoloji problemlərlə nəticələnəcək addımlara gedir?

Xatırladım ki, hazırda bütün dünya, istər ABŞ, istərsə də Avropa Birliyi və digər ölkələr ekoloji problemlərin həlli istiqamətində səfərbərlik elan edib. Məsələn, ABŞ özünün enerji siyasətində birbaşa "yaşıl enerji" konsepsiyası keçirməsinə məcbur qalıb. İstər daxildə, istərsə də xaricdə bununla bağlı çox sayda təzyiqlər olur. Həmçinin Azərbaycanla Avropa Birliyi özünün enerji məsələlərində, ötən ilin yay və payız aylarında Avropa Komissiyası və Azərbaycan arasında imzalanmış enerji sazişlərinin hamısında məhz "yaşıl enerji" ilə bağlı məqamlar var. Bu, qarşılıqlı tələb kimi qoyulub və bu tələblər, sadəcə, enerjiyə aid deyil, həm də bərpa olunan elektrik enerjisinə bağlı xətlərin çəkilişinə aiddir və bu standartlar beynəlxalq standartlardır. Lakin görünən budur ki, bu standartlar Ermənistana təsir etmir. Çünki Ermənistan beynəlxalq, müasir düşüncəli ölkə deyil. Bunu qəbul etmək lazımdır.

Paralel olaraq bir məsələ də var - Ermənistan 30 ilə yaxın bir dövrdə işğal altında qalanda torpaqlarımızı faktiki olaraq yarımsəhraya çevirib. Xatırlatmaq istərdim ki, sovet dövründə "Qırmızı kitab" var idi və bu kitabda qeyd olunan, Cənubi Qafqazın nadir tapılan fauna və flora nümunələri əsasən Azərbaycanın Laçın, Kəlbəcər, Lənkəran meşələrinə aid idi. Amma indi həmin meşələr quruyub. Meşələrin quruması ilə də yeraltı sular, yeraltı su hövzələri quruyub, quraqlaşıb və bu da planetin ciddi ekoloji problemlərindən biridir.

Həmçinin Ermənistan 30 il ərzində Zəngilanda, ardınca Kəlbəcərdə qanunsuz qızıl emalı həyata keçirməklə çaylarımızı, meşələrimizi çirkləndirib. Məsələ burasındadır ki, etdiyi bu cür ekoloji cinayətlərə görə nə dünya Ermənistandan bir fikir soruşmadı, nə də Ermənistan hər hansı məsuliyyət daşmadı. İndi də növbəti bu cür ekoloji cinayətlərə davam edilir.

BMT 2030-cu ilə qədər bütün ölkələr üçün təhlükələr formalaşdırıb, bunlardan biri də ekoloji təhlükəsizlikdir və ekoloji təhlükəsizlik ölkələrin milli təhlükəsizliyinin vacib elementinə çevrilib. Yəni Ermənistanın Azərbaycanın ekologiyasına qarşı atdığı addımlar Azərbaycanın milli təhlükəsizliyinə qarşıdır. Qeyd etdiyim kimi, ekoloji təhlükələr həm də milli təhlükəsizliyə hədələr formalaşdırır.

Amerikada liberal biznesdir. Yəni onlar biznes qurarkən məsləhətləşmələr etmirlər. Amma bu o demək deyil ki, onlar istəsə Azərbaycanın ekoloji vəziyyətini pisləşdirəcək zavod tikə bilərlər. Azərbaycanla sərhəddə belə bir zavod tikilməsi təkcə ekoloji deyil, həm də digər risklər də formalaşdırır".

**Politoloq qeyd edib ki, ABŞ nə qədər liberal olsa da, Azərbaycanla bu addıma getməməlidir:** "Çünki bu birmənalı olaraq Amerika şirkətlərinin regional ekoloji vəziyyətin pisləşməsində iştirakı kimi qiymətləndiriləcək və bu, həmin şirkətə qarşı gələcək hüquqi təzyiqlərin olması üçün əsas yaradacaq.

Ermənistanın isə burada məqsədi ondan ibarətdir ki, sərhəddə bu cür zavod tikilməsi ilə ABŞ-la Azərbaycan arasındakı münasibətləri korlansın. Bu, Ermənistanın ənənəvi olaraq Azərbaycanın bütün tərəfdaşları ilə münasibətləri korlamaq istiqamətində tutduğu strategiyanın həyata keçirilməsinin növbəti mərhələsidir".

❑ **Xalidə GƏRAY**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 112 (8248) 5 iyul 2023

# Səfirliyə hücumdan sonra bir ilk - iranlı nazir Bakıda!

## Tehranın baş diplomatının Azərbaycan səfərindən nələr gözləyək?; ekspertlərdən maraqlı proqnozlar və təhlillər...

**İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahian iyulun 4-də Azərbaycana gəlib. Səfərin məqsədi Qoşulmama Hərəkatı Əlaqələndirmə Bürosunun nazirlər səviyyəsində keçiriləcək iclasında iştirak etməkdir. İki gün davam edəcək iclas "Qoşulmama Hərəkatı: yaranan çağırışlara qarşı vahidlik və sarsılmazlıq" mövzusuna həsr olunacaq. Bundan başqa, səfər çərçivəsində Azərbaycan rəsmiləri ilə ikitərəfli görüşlərin keçirilməsi planlaşdırılır. Tehrandakı səfirliyimizə hücumdan sonra hər iki ölkə arasında yeganə kommunikasiya xarici işlər nazirləri arasında qalıb. Ceyhun Bayramov və Hüseyn Əmir Abdullahian bir neçə dəfə belə təmas qurublar, ancaq münasibətlərin normallaşmasına müsbət təsir etməyib.**

Son olaraq iyunun 25-də Ceyhun Bayramovla Hüseyn Əmir Abdullahian arasında yenə telefon danışığı baş tutub. Rəsmi bilgiyə görə, telefon danışığı zamanı Azərbaycanla İran arasında münasibətlərin cari vəziyyəti və perspektivləri müzakirə edilib.

Bu, iranlı nazirin münasibətlərin gərginləşməsindən sonra Bakıya ilk səfəridir. İranın Xarici İşlər Nazirliyinin sözçüsü Nasir Kənani son həftələr bir neçə dəfə Bakıya müsbət mesajlar verib. Tehranın son mesajlarından aydın olan budur ki, İran əlaqələrin əvvəlki vəziyyətə qaytarılmasını, o cümlədən səfirliyin fəaliyyətinin bərpasını arzu edir. Bakının da şərtləri məlumdur. Səfirliyin bərpası yalnız terror aksiyasını həyata keçirən və onu sifariş verən şəxslərin ədalət məhkəməsi qarşısında dayanmasından, layiqli cəzalarını almasından və diplomatlarımızın təhlükəsizliyinə əminlik yaradan mexanizmlərlə təminat verməsindən sonra mümkün ola bilər.



Azərbaycanın Tehrandakı səfirliyinə silahlı hücum işi üzrə əvvəlkitək bir müttəhim var. İran KİV-in məlumatına görə, bu barədə İranın məhkəmə sistemi və ədliyyə üzrə nümayəndəsi Məsud Sətayşi bildirib.

O, baş verənləri "gözlənilməz və kədərli insident" adlandırıb. "Odur ki, ölkənin məhkəmə, siyasi və güc orqanları hər zaman bildiriblər ki, bu hücumun əsas günahkarı və ya bunda əli olan digər şəxslərlə qətiyyətli və qanuni şəkildə davranmaq lazımdır. Geniş araşdırmalardan sonra qeyd olunub ki, işin müxtəlif aspektləri aydınlaşdırılmalı və iş Azərbaycan hökuməti ilə əməkdaşlıq şəraitində hökmün çıxarılması ilə nəticələnməlidir. Əvvəlkitək iş üzrə eyni müttəhim keçir", - Sətayşi deyib.

Onun bəyanatı İranın Xarici İşlər Nazirliyinin rəhbəri Hüseyn Əmir Abdullahianın Azərbaycana səfəri ərəfəsində səslənib. Saxlanılan şəxs İran vətəndaşı, 50 yaşlı Yasin Hüseynzadədir.

Eyni zamanda polis hücum edən şəxsin səfirliyin binasının yanında müsahibə verməsinə və cinayətin motivlərini açıqlamasına şərait yaradıb. O, cinayətin səbəblərini "ailə və şəxsi problemləri ilə" əlaqələndirib, deyib ki, guya onun Azərbaycan vətəndaş olan xanımını səfirlikdə "gizlədiblər".

Azərbaycanda səfirliyə hücum terror aktı kimi qiymətləndirilib və hərtərəfli araşdırma tələb olunub.

Bakı səfirliyin bütün əməkdaşlarını təxliyə edib və diplomatik missiyanın fəaliyyətinin bərpası üçün hücumda iştirak edənlərin hamısının müəyyənləşdirilməsini və cəzalandırılmasını şərt kimi irəli sürüb.

İndiyədək İran hakimiyyəti istintaqın gedişi barədə susurdu.

Daha bir mühüm məsələ İranın Zəngəzur dəhlizinin gerçəkləşməsinə mane olmasıdır. İranın xüsusi xidmət orqanları radikal qrupları maliyyələşdiriblər, dövlətimizə qarşı ideoloji təxribatlar törədiblər ki, bu da həllini gözləyən məsələlər sırasına daxildir. Hər halda, İran xarici işlər nazirinin səfəri daha bir müsbət addım kimi dəyərləndirilə bilər. Amma bəzi ekspertlərə görə, İranda Azərbaycanla bağlı qərarları XİN deyil, güc strukturları - İran İslam Keşikçiləri Korpusu və ona aid strukturlar verirlər. Məsələn, İsveçdə Qurani-Kərimin yandırılmasına qarşı müsəlman ölkələrinin reaksiyaları fonunda İran kəşfiyyatına yaxın "Səhər" kanalı ölkəmizə qarşı yenə "ittihamla" çıxış edib. "Səhər" ölkəmizə qarşı növbəti böhtanında guya "bütün dünyanın İsveçdə Quranın yandırılmasını lənətləndiyi bir vaxtda" Azərbaycanın susqunluq nümayiş etdirdiyini iddia edib. Bəs bu səfər əlaqələrin bərpası üçün nə qədər faydalı ola bilər?

**Siyasi şərhçi Elçin Mirzəbəyli "Yeni Müsavat"a bildirdi ki, İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahian Azərbaycana Qoşulmama Hərəkatı Əlaqələndirmə Bürosunun iclasında iştirak etmək üçün gəlib:** "Bu, artıq Abdullahianın ölkəmizə səfərinin motivinin Azərbaycanla münasibətlər olmadığını reallığını yaradır. Səfər, eyni zamanda rəsmi Tehranın Bakı ilə münasibətləri tamamilə qırılma nöqtəsinə gətirməkdə maraqlı olmadığını, daha doğrusu, bunun İran rejimi üçün də təhlükəli proseslərə yol aça biləcəyini anladığını sübuta yetirir". **E.Mirzəbəyli qeyd etdi ki, Azərbaycanın İranla qarşılıqlı münasibətlərin normallaşması üçün təqdim etdiyi gündəlik kifayət qədər aydındır:** "Azərbaycan səfirliyinə qarşı həyata keçirilən terror aksiyasının iştirakçı və sifarişçiləri məsuliyyətə cəlb edilməli, rəsmi Tehran diplomatik nümayəndəliyimizin təhlükəsizliyini təmin edə bilmədiyi üçün üzr istəməli, Azərbaycan ərazisində həyata keçirilən və həmçinin keçirilməsi nəzərdə tutulan, təhlükəsizlik və hüquq-mühafizə orqanlarının ayıq-sayıqlığı nəticəsində ifşa edilən terror aksiyalarının və digər cinayətlərin İran İslam Respublikasının ərazisində məskunlaşmış sifarişçiləri Azərbaycana təhvil verilməli, İran mediasında, o cümlədən bu ölkənin Azərbaycana yönəlik təbliğat resurslarında dövlət quruluşumuza qarşı həyata keçirilən təxribatlara son qoyulmalıdır". Siyasi şərhçi əlavə etdi ki, bütövlükdə rəsmi Tehran Azərbaycana qarşı apardığı pozuculuq kampaniyalarına son qoymalıdır. İranın Ermənistanı dəstəkləməsinə, həmçinin Zəngəzur dəhlizinin gerçəkləşməsinə manеə yaratmaq cəhdlərinə gəldikdə isə E.Mirzəbəyli hesab edir ki, bu məsələlərlə bağlı da Tehranın mövqeyində ciddi dəyişikliklər etməsinə, bölgədə regiondankənar qüvvələrin maraqlarını ifadə edən İrəvanla münasibətlərinə yenidən və ciddi şəkildə baxmasına ehtiyac var: "Düşmənçilik münasibəti İran tərəfindən sərgiləndiyinə görə, münasibətlərin normallaşması üçün addımları da bu ölkə atmalıdır. İndiki davranışları ilə rəsmi Tehran bu günədək Azərbaycana qarşı həyata keçirdiyi düşmənçilik siyasətini görməzdən gəlməyimizi, həzm etməyimizi, unutmağımızı istəyir. Bu isə heç bir halda Azərbaycan tərəfindən qəbul edilə bilməz. İndiki şəraitdə yalnız qarşılıqlı iqtisadi əlaqələrin qorunmasından, Şimal-Cənib nəqliyyat dəhlizinin Azərbaycan üzərindən keçən marşrutunun dəmir yol xəttinin işə salınmasından söhbət gedə bilər. Molla rejiminin Azərbaycana qarşı düşmənçilik münasibəti bu ölkənin potensialı ilə uzlaşmayan geosiyasi iddialarından qaynaqlanır və bu baxımdan da qarşılıqlı münasibətlərin sabit bir müstəviyə düşəcəyi ehtimalı çox azdır".

**Azad Vətən Partiyasının sədri Akif Nağı qeyd etdi ki, İran xarici işlər nazirinin Azərbaycana səfəri ilə bağlı müsbət tendensiyaların başlanmasını istəyərdik:** "Azərbaycan rəsmiləri, o cümlədən xarici işlər nazirimiz qonşu ölkə ilə xoş münasibətlərin tərəfdarı olduğunu bildirib. İrandan da həm xarici işlər naziri, həm də dini liderin müşaviri Vilayətinin dilindən müsbət fikirlər səsləndirilib. Azərbaycanın xoş niyyəti ortadadır. Amma İranın sözü ilə əməlinin üst-üstə düşdüyünü görmürük. Ən əsası isə Azərbaycan səfirliyinə basqın və terror hərəkəti ilə bağlı heç bir tədbir görülməyib, adamlarımız orada uydurma ittihamlarla saxlanılır, İran rəsmiləri tərəfindən dayanmadan təxribatçı bəyanatlar verilir, hətta Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürülür". **A.Nağı qeyd etdi ki, üstəlik, Ermənistanla isti münasibətlər qurmaqda israrlı görünürlər:** "Ona görə də bu səfərin münasibətlərin düzəlməsinə ciddi təsir edəcəyi inandırıcı deyil. İranın xarici işlər naziri, böyük ehtimalla, bu səfərdə iki məqsəd güdür: birincisi, Qoşulmama Hərəkatı çərçivəsindəki ptoseslərdən kənarda qalmaq istəmir, eyni zamanda Azərbaycanın səyləri nəticəsində getdikcə nüfuzu artan bu təşkilatın imkanlarından yararlanmağa çalışır. Lakin belə demək olar ki, Azərbaycanla Ermənistan arasında hələ də düzgün seçim edə bilmədiyinə görə İran bu qurumun dəstəyinə ümid edə bilməyəcək. Digər tərəfdən, İran Azərbaycanla münasibətlərin əhəmiyyətini başa düşür, əməkdaşlığa can atır. Amma siyasətlərində deyimiz düzəlişləri etmədən, ciddi nəticələrə ümid etməməlidirlər. Hər halda, xeyli müddət davam edən qarşıdurmadan sonra müəyyən əlaqələrin yaranması pis deyil. Bizim ermənilərdən başqa əbədi düşmənimiz yoxdur, məlum fikri təkrar edib, siyasətdə maraqlar var desək, yanılmarıq".

**Sosial Tədqiqatlar Mərkəzinin baş mütəxəssisi, politoloq Tural İsmayılov isə qeyd etdi ki, İran XİN rəhbərinin Bakıya səfəri ikitərəfli münasibətləri inkişaf etdirmək baxımından həyata keçmir:** "Qoşulmama Hərəkatının toplantısı üçün iranlı nazir də dünyanın bir çox önəmli diplomatı kimi ölkəmizə gəlir. O rakursdan bu səfərin elə də mühüm əhəmiyyəti mövcud deyil. Amma İranın son zamanlar artan birmənalı qərəzindən sonra hansıa yüksək rütbəli iranlı siyasinin Bakıya səfəri vacibdir". **T.İsmayılov qeyd etdi ki, XİN rəhbərinin səfərində ölkələrimiz arasındakı əlaqələrin gələcəyi ilə bağlı müzakirələr aparılır:** "Eyni zamanda fikir ayrılıqlarını aradan qaldırmaq, münasibətlərdə yeni xətt başlatmaq üçün də səfər vacib əhəmiyyətə malikdir. Lakin İranda səfirliyimizə qarşı törədilən terror izah edilmədikcə, Azərbaycan dövlətçiliyi əleyhinə fəaliyyət göstərən ekstremistlər Azərbaycana təhvil verilmədikcə İranı səmimi hesab etmək olmaz".

Hər halda, İran rəsmisinin Bakıda ikitərəfli münasibətlərin perspektivləri barədə açıqlamaları da maraq kəsb edir. Rəsmi Bakı mövqeyini qəti və aydın şəkildə bəyan edir, Tehran körpülərin sonadək yandırılmasını istəmirsə, beynəlxalq hüquqa və ikitərəfli münasibətlərə istinadən üzərinə düşənləri icra etməlidir...

❑ E.PAŞASOY,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 112 (8248) 5 iyul 2023

# Ölkədə oxuyub-yazmağı bacarmayan "11"cilər varmış - üç mühüm səbəb

## Ekspert: "Mövcud vəziyyət orta ümumtəhsil məktəblərində tədrisin keyfiyyətindən xəbər verir"

**“9-cu və 11-ci sinif şagirdləri arasında nəinki tədris proqramını minimum mənimsəməyənlər, hətta oxuyub-yazmaqda çətinlik çəkənlər və ya ümumiyyətlə, oxuyub-yazmağı bacarmayanlar da aşkar olunub”.**

Bu barədə “Abituriyent” jurnalının 12-ci nömrəsində qeyd olunub. Bildirilib ki, 2022-ci ilin nəticələrinə görə, 9-cu sinif şagirdləri arasında 21 nəfər, 11-ci sinif şagirdləri arasında 2 nəfər oxuyub-yazmağı bacarmayıb.

“Bu cür halların imtahan rəhbərlərinin əksəriyyətinin protokollarında qeyd olunmamasını nəzərə alsaq, yuxarıda göstərilən faktların əslində daha çox olduğunu ehtimal etmək olar. Rayonlar üzrə oxumağı və yazmağı bacarmayan 9-cu sinif şagirdlərinin sayı belədir: Masallı rayonunda 4 nəfər, Goranboy, Gədəbəy və Quba rayonlarının hərəsində 2 nəfər, Abşeron, Astara, Cəlilabad, Kəlbəcər, Lənkəran, Lerik, Saatlı, Xocalı, Yardımlı rayonlarının, Bakı, Mingəçevir şəhərlərinin hərəsində 1 nəfər. 11-ci sinif şagirdlərindən oxumağı və yazmağı bacarmayanlar isə Ağdam və Qobustan rayonlarından olub”, - deyə jurnalda qeyd olunub.

Bəs müasir dövrdə ölkədə 9-cu, 11-ci sinif şagirdləri arasında ümumiyyətlə yazıb-oxumağı bacarmayan şagirdlərin mövcud olmasının səbəbi nədir?

**Məsələ ilə bağlı təhsil eksperti Kamran Əsədov “Yeni Müsavat”a danışıb. Ekspert qeyd edib ki, mövcud vəziyyət orta ümumtəhsil məktəblərində tədrisin keyfiyyətindən xəbər verir:** “9-cu və 11-ci sinif imtahanlarının nəticələri tam olaraq orta ümumtəhsil məktəblərinin güzgüsü hesab olunur və burada nəticələrin aşağı olmasının bir neçə səbəbi var. Xüsusən də qeyd etməliyik ki, oxuma-yazma bacarıqlarının olmadığını əks etdirən nəticələr çox ciddi və təhlükəli nəticədir.

Birincisi, Dövlət İmtahan Mərkəzi 11-ci sinif imtahan iştirakçılarına imtahan keçirdikdə, onların aşağı siniflərdəki bilgilərini də yoxlayırlar. Təbii ki, bu zaman müəyyən qədər bilik və bacarıqların unudulması müşahidə oluna bilər. Yəni şagird 11-ci sinifdə oxuyanda 5-6-cı sinifdə əldə etdiyi bilikləri unuda bilər və bütün dünyada bu ola bilir. Amma burada təqdim edilmiş test tapşırıqlarının ağırlıq səviyyəsi də öz təsirini göstərir. Təbii ki, heç də bütün şagirdlər ali məktəblərə və yaxud orta ixtisas müəssisələrinə getmək istəmir və bu da öz təsrini mütləq şəkildə göstərir. Amma məşhur bir ifadə var ki, təhsil sisteminin səviyyəsi müəllimin səviyyəsindən, biliyindən artıq olmur.

2014-2018-ci illərdə müəllimlərin diaqnostik imtahan nəticələrini, həmçinin ilk dəfə 2022-ci ildə dörd bölgə üzrə 11 min ibtidai sinif müəllimlərinin iştirak etdiyi sertifikasiya nəticələrini təhlil edəndə görürük ki, 11 mindən 2800 müəllim keçid balını toplaya bilməmişdi, yəni öz ixtisası ilə bağlı minimum suallara cavab verə bilməmişdilər. Özü bir şey bilməyən müəllim əlbəttə ki, şagirdlərə heç nə öyrədə bilməz və bu, yuxarı siniflərin müəllimlərinə də aiddir ki, fənlərin tədrisi zamanı



müəllimlərin bilik və bacarıqları aşağıdır.

İkincisi, bu gün Azərbaycan təhsil sistemi repetitorluqdan asılı vəziyyətdə qalıb. Kimlər ki, repetitorluq xidmətindən, hazırlıq kurslarından yararlana bilir, onların tədris göstəriciləri, qəbul nəticələri yaxşı olur. Amma kimlər ki, bu prosesdən məhrumdur, təbii ki, nəticələri aşağı olur. Hətta bölgələr üzrə adıçəkilən ərazilərə baxanda görürük ki, Lerik, Saatlı, Gədəbəy və sairə mərkəzdən kənardadır və həmin ərazilərdə repetitorluq, hazırlıq kursları çox da yayılmayıb və yaxud təkmil deyil.

Lakin bəzən mərkəzi ərazilərdə də nəticələrin o qədər də ürəkaçan olmadığını görürük. Səbəb müəllimlərin bilik və bacarıqlarının zəif olmasıdır.

Digər səbəb isə dərsliklərlə bağlıdır. Yəni dərsliklər öyrədici funksiyanı yerinə yetirmir və şagirdlər repetitor, hazırlıq kursu olmadan dərslikləri mənimsəyə bilmirlər. Beləliklə, dərsliklərimizin ağır olması nəticələrin aşağı olmasına gətirib çıxarır.

Daha bir əsas səbəblərdən biri təhsilin idarə olunmasında ciddi boşluqların, təhsilin qiymətləndirilməsindəki qeyri-obyektivliyin mövcud olmasıdır. Əlbəttə ki, bunu aradan qaldırmaq mümkündür. Hesab edirəm ki, müstəqil qurumlar və yaxud DİM ildə bir dəfə hər sinif üzrə monitorinq imtahanları keçirməlidir və müəllimlər şagirdlərinin nəticələrini analiz edib, tədbirlər görə bilər.

Qeyd etdiyim kimi, test tapşırıqlarının ağırlıq səviyyəsi də öz təsirini göstərir. Müşahidə edəndə görürük ki, test tapşırıqları çətin olur və şagirdlər bu test tapşırıqlarını cavablandırmaqda çətinlik çəkirlər. Bəzən şagirdlər sual modelləri ilə tanış olmur, çünki məktəblərdə KSQ, BSQ sualları kurikulum standartlarına uyğun olmur. Müəllimlər bəzən internet resurslarından götürdükləri KSAQ, BSQ suallarını şagirdlərə tətbiq edirlər və bu da DİM-in test suallarına uyğun olmur. Hesab edirəm ki, bu məsələlər üzərində ciddi işlər görülməlidir".

❑ **Xalidə GƏRAY,**
**“Yeni Müsavat”**

# Paytaxtın əbədi problemi - qəzalı liftlər

## Bu 20-30 min manat məgər insan həyatından önəmlidir?

**İyunun 29-da Bakıda çoxmərtəbəli yaşayış binasında liftin qırılması barədə xəbər verilib. Hadisə nəticəsində 4 qadın ağır xəsarət alıb və xəstəxanaya yerləşdirilib.**

Bu fakt paytaxtda qəzalı liftlər problemini təzədən gündəmə gətirir. Təəssüf ki, bu, ilk belə fakt deyil. Hətta daha ağır, ölümlə nəticələnən faktlar məlumdur.

Bakının Xətai rayonu, Seyid Əzim Şirvani küçəsi, 54 saylı (bina 4 C) 13 mərtəbəli binanın sakinləri də neçə vaxtdır qəzalı liflərdən şikayətçi olsalar da, dərdlərinə çarə edən yoxdur. Hər iki liftin təmiri üçün dəfələrlə pul da yığılıb. Lakin xeyri yoxdur. Yeganə çıxış yolu onu təzələməkdir. Buna isə heç kəs, hətta tikinti şirkəti yiyə durmur. Məgər hökmən faciə baş verməlidir ki, əlaqədar qurumlar və məsul şəxslər hərəkətə gəlsinlər?



**Məsələ ilə bağlı Bakı Lift-Təmir İstehsalat Birliyinin mövqeyini öyrənməyə çalışdıq. Qurumun baş mühəndisi Mehdi Hüseynov sorğumuza bu cür cavab verdi:** “Qurumumuz yalnız şəhər icra hakimiyyətinin xidmətində olan liftlərə baxır. Çox güman ki, barəsində müraciət olunan bina korporativdir və sakinlərin hansısa şirkətlə müqavilələri var. Bu zaman ya həmin şirkətə müraciət olunmalı, ya da balanssaxlayıcı binanın sahibi özü hansısa tədbir görməlidir”.

**Təhlükəsizlik üzrə ekspert Elmar Nurəliyev isə qeyd etdi ki, bütün çoxmənzilli yaşayış binaları, habelə əyləncə mərkəzləri təhlükə potensiallı obyektlər sırasındadır:** "Onların istismarı qaydalara uyğun şəkildə aparılmalıdır. Mütləq şəkildə obyektdə, binada təhlükəsizliyə cavabdeh şəxs olmalıdır. Binanın avadanlıq və qurğularının, detallarının, elektron sisteminin dəyişdirilməsi, yenilənməsi, əvəz olunması ixtisaslaşmış və lisenziyalı müəssələr tərəfindən həyata keçirilməlidir".

**Elmar Nurəliyevin sözlərinə görə, müasir dövrdə liftin qırılması çox nadir hallarda rast gəlinən hadisədir:** "Liftlərdə yanğın baş verə bilər. Amma liftin qırılması 50 milyonda bir olan hadisədir. Bu qeyri-mümkündür ki, lift qırılıb düşsün. Çünki müasir liftlərin hamısında təhlükəsizlik sistemi elə qurulur ki, orada həm əyləc, həm də trosla qoruyucu sistem var. Əgər liftin sürəti saatda 1,4 km-i keçərsə, avtomatik olaraq əyləc sistemi işə düşür və lift dayanır. Hətta artıq yükləmə olduqda lift yerindən tərpənmir. Artıq yüklənmə liftin qırılmasına səbəb olmur, sadəcə. onun istismar müddətinin tez başa çatmasına gətirib çıxarır. İndi təsəvvür edin ki, həmin lift hansı vəziyyətdə olub ki, qırılıb.

Liftlərə vaxtında texniki qulluq göstərilərsə, elektron sistemi qaydasında olarsa, detalları, qurğuları, tros sistemi vaxtında dəyişdirilərsə, yenilənərsə, qəza hallarının sayı sıfra enər.

Hazırda bir çox yeni tikili binalarda liftdə generator yoxdur, elektrik kəsildikdə insanlar liftin içində qalır. Gərək kimsə səs-küy salsın ki, liftdə kiminsə qalması bilinsin. 21-ci əsrdə bu cür faktların olması, sadəcə, biabırçılıqdır. Bina sahibindən soruşanda ki, niyə generator yoxdur, cavab verir ki, bunun üçün əlavə 20-30 min manat pul lazımdır. Bu 20-30 min manat məgər insan həyatından önəmlidir? Qaydaya əsasən liftdə generator olmalı və buna əməl edilməlidir".

**Elmar Nurəliyev həmçinin qeyd edib ki, insanların özləri də təhlükəsizlik qaydalarına riayət etməyə maraqlı olmalıdırlar**: "Bir sıra hallarda bina sakinlərinin özləri liftdən istifadədə məsuliyyətsiz davranır, məsələn, göstərilən normadan artıq yükləyir, düymələrini qırır, düymələri eyni vaxtda basır. Bütün bunlar da liftin vaxtından əvvəl istismar müddətinin başa çatmasına səbəb olur. Həmçinin liftin tavanına, döşəməsinə, yan güzgülərinə toxunmaq olmaz. Həmin güzgülərin belə təhlükəsizlik elementləri var. Liftə minəndə mütləq güzgüdə özünü görmək lazımdır. Ola bilər ki, liftin qapısı açıq olsun, amma özü mərtəbəyə gəlməsin, bu zaman şəxs bilmədən liftə minəndə şaxtaya düşə bilər. Bir sözlə, insanların özləri də təhlükəsizlik qaydalarına riayət etməyə maraqlı olmalıdırlar.

Binanın ümumi istifadəsi, o cümlədən qarajı, lifti, zirzəmisi, həyətyanı sahəsi, pilləkən qəfəsi vətəndaşların ümumi mülkünə daxildir. Yəni binada yaşayan hər bir vətəndaşın hüququ var ki, binanı çalışdıran şəxsdən binaya xərclənən vəsaitlə bağlı hesabat tələb etsin. Hüquqlardır ki, bilsinlər liftin qurğuları dəyişdirilib, yenilənibmi və sairə. Əslində binanı idarə edən şəxslər özləri bu haqda yazılı və ya şifahi şəkildə sakinlərə hesabat verməlidirlər. Əgər binanı idarə edən şəxs bu məsələlərə etinasız yanaşarsa, bina sakinləri həmin şəxsi idarəçilikdən uzaqlaşdıra bilərlər".

❑ **Xalidə GƏRAY,**
**“Yeni Müsavat”**

# Deputatla hərbi ekspert arasında şəhid sayı mübahisəsi

## Akif Nağı: "İcra hakimiyyəti və ya sosial müdafiə strukturlarının ona bu rəqəmləri verməsi inandırıcı deyil"





**"Mən Ədalət Verdiyevi təhqir etməmişəm, onun əleyhinə söz danışmamışam. Sadəcə, Heydər Əliyevə istinad olaraq demişəm ki, Ağdam 6 min şəhid verib". Bu sözləri mediaya açıqlamasında Milli Məclisin deputatı Aqil Abbas hərbi ekspert Ədalət Verdiyevlə aralarında olan problemlə bağlı danışarkən deyib.**

O bildirib ki, Ə.Verdiyevə xəbəri yanlış çatdırıblar: "Ağdamlıların toyunda çıxış edən zaman demişəm ki, "Ədalət Verdiyev deyir Ağdam 1200 şəhid verib, amma Ağdamda 6 min şəhid olub".

**Deputat deyib ki, Ə.Verdiyev müharibədə iştirak edib:** "Ədalət Ağdamda torpaq uğrunda vuruşanlardandır. Axı söz-söhbət nəyə lazımdır? Lap Ağdamın 6 min yox, 100 şəhidi var. Bu nəyi dəyişəcək? Statistikaya baxaq görək Ağdamdan çox şəhid verən var? Heç şəhidlərin hamısı siyahıya alınmayıb. "Fred Asif" kimi tanınan qəhrəmanımız, komandir batalyon olan Asif Məhərrəmov şəhid statusu almadı".

**Aqil Abbas deyib ki, bu sözləri toyda deməkdə pis məqsədi olmayıb:** "Ağdamlı məclisi, qazi oğlunun toyu idi. Təbrik edən zaman Ağdamla və ağdamlılarla bağlı xoş sözlər deyəndə demişəm ki, "Ədalət Verdiyev də deyir ki, Ağdamın 1200 şəhidi var". İndi Ədalətə söhbəti necə çatdırıblar, bilmirəm. Facebook səhifəsində haqqımda paylaşım edib, hamı da məni söyür".

Ədalət Verdiyev bildirib ki, bu, Ağdam uğrunda gedən döyüşlərdə həlak olanların



ümumi sayı ola bilər, lakin bunun da rəsmi təsdiqi yoxdur.

**Hərbi ekspert deyib ki, əgər A.Abbasın əlində belə bir statistika varsa, qoy rayonlar üzrə açıqlasın:** "Birinci Qarabağ müharibəsində Ağdam qeydiyyatında olan 1027 şəhidi var. Onun 290 nəfəri mülki şəxslər, qalanları isə hərbçi və polislərdir. Bu məlumatlar həm Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində, həm də Ağdam Rayon İcra Hakimiyyətində mövcuddur".

Ə.Verdiyev deyib ki, Birinci Qarabağ müharibəsində 11557 nəfər şəhidimiz olubsa, onun 6 mininin Ağdamdan olması da məntiqə çox uyğun gəlmir.

İndiki zamanda belə bir müzakirənin aparılması uğursuz deyilmi? Əslində dəqiq statistika varmı?

**Azad Vətən Partiyasının sədri Akif Nağı "Yeni Müsavat"a bildirdi ki, bu rəqəmlər məxfi xarakter daşıyır. Bu barədə mübahisə xarakterli fikirlər aparılması uğursuzdur. Ədalət Verdiyevin o cür fikirləri eyni zamanda ziyanlıdır:** "Onun 1027 rəqəmini haradan götürdüyü məlum deyil. İcra hakimiyyəti və ya sosial müdafiə strukturlarının ona bu rəqəmləri verməsi inandırıcı deyil. Veriblərsə, Azərbaycan qanunlarına görə məsuliyyət daşıyırlar. İstənilən şəxsin şəhidlərimizlə bağlı yanlış fikir ifadə etməsi pislənməlidir. Ağdam şəhidləri ilə bağlı bu cür gündəmə gəlmək istəyi anlaşılan deyil. Ədalət Verdiyev deyir ki , guya haqq-ədaləti bərpa etmək istəyir. Bunun üçün başqa bir sahə tapmadımı, niyə məhz Ağdam şəhidlərini seçib?! Şəhidlər həm müqəddəs and yerimizdir, həm də dövlətin təhlükəsizliyi məsələsidir. Ona görə də xüsusi xidmət orqanları bu işlə maraqlanmalıdır. Bir məsələni də xüsusi vurğulamaq istəyirəm ki, bu adam, deyilənlərə görə, bəzi yerlərdə özünü "yuxarılara yaxın adam" kimi təqdim edir, bu tərəfdən də mərhum Prezident Heydər Əliyevin, dövlət başçısı İlham Əliyevin fikirlərini təkzib edir. Sonda demək istəyirəm ki, şəhidlərimizin ruhlarını incitmək olmaz. Qısaca başqa bir məsələni də bu ekspertin nəzərinə çatdırmaq istəyirəm ki, bütün müharibələr, o cümlədən dünya müharibələrində itkilərlə bağlı fərqli fikirlər bu gün də var. Bu məsələni qabartmağa ehtiyac yoxdur".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Rusiyalıların artan Bakı sevdası-şimaldan köçə hazırıqmı?

## Eyyub Kərimli: "Rusiyalıların ölkəmizə axınının təhlükəsi..."

**"Yandex Travel" analitiklərinin araşdırmasının nəticəsinə görə, Azərbaycan iyunda xarici istiqamətlər arasında ruslar üçün tələbat artımı baxımından lider ölkə olub.**

"2023-cü ilin iyun ayında 2022-ci ilin iyun ayı ilə müqayisədə Azərbaycana səyahətə maraq 249% artıb", - deyə onlar qeyd ediblər.

Mütəxəssislər bu cür göstəricilərin yaranmasının səbəbləri arasında bu ilin yayında Azərbaycana uçuşların qiymətlərinin xeyli aşağı salınmasını qeyd ediblər. Belə ki, 2023-cü ilin iyununda gediş-gəliş əvvəlki ilin eyni dövrü ilə müqayisədə 23% ucuz başa gəlib. Azərbaycanda hotellərin bronlaşdırılması qiymətləri isə 2022-ci ildəki qiymətlərlə eynilik təşkil edir.

Eyni zamanda ötən ilin müvafiq dövrü ilə müqayisədə Gürcüstana (87%), Tailanda (80%), Kiprə (55%) və Türkiyəyə (44%) səyahət tələbi də xeyli artıb.

Qeyd edək ki, Ukrayna müharibəsi başlayandan sonra Rusiya vətəndaşları daha çox səyahət adı altında




ölkədən çıxır və əsasən keçmiş sovet respublikalarının yaşamaq, həm də biznes üçün daha əlverişli ölkələrində yerləşirlər. Bu sırada əsas yerdə Gürcüstan gəlir. Ermənistanda da bu rəqəm az deyil. Amma son aylara qədər Azərbaycana turist və yaşamaq üçün gələnlərin sayında artım nəzərə çarpır. Ola bilsin ki, bu prosesə Türkiyə və Gürcüstan hakimiyyətlərinin rusiyalı investorlara nəzarəti gücləndirməsi ilə bağlı müzakirələr də təsir etsin.

Məsələn, **Gürcüstan prezidenti Salome Zurabişvili bugünlərdə deyib ki, rusiyalı investorlara vətəndaşlıq verilməsinin əleyhinədir.**

"Rus biznes investorları üzərində nəzarət olmalıdır, Rusiyadan olan ruslar, kiprli ruslar, İsraildən olan ruslar. Mən Rusiyadan olan investorlara vətəndaşlıq verilməsini qəti şəkildə əngəlləyirəm. Gürcüstan hakimiyyəti Rusiya investorlarına nəzarəti gücləndirməlidir", - deyə S.Zurabişvili qeyd edib.

Prezident həmçinin deyib ki, belə investorların ölkədə işləməsi üçün yaşayış icazəsi lazımdır. Türkiyədə də bəzi bölgələrdə rusiyalıların ev almasını əngəlləyən qadağalar var.

Ekspertlərə görə, Rusiyada baş verən son hadisələr fonunda bu şimal ölkəsində tərəddüd edənlərin sayı artıb və tezliklə rusiyalılar özlərinə daha yaxın ətrafda təhlükəsiz ölkələr axtarmağa meyllənəcəklər.

Azərbaycan bu axından iqtisadi baxımdan nələr əldə edə bilər? Rusiyalıların xüsusilə paytaxtda artımının gələcəkdə hansısa mənfi nəticələri ola bilərmi?

**Mövzu ilə bağlı iqtisadçı ekspert Eyyub Kərimli "Yeni Müsavat"a danışıb:** "Ukrayna müharibəsi səbəbindən Rusiya uzun müddətdir ki, iqtisadi sanksiyalarla üzləşib, 8 iqtisadi sanksiya paketi ilə mübarizə aparır. Təbii ki, bu da həm Rusiya büdcəsinə, həm də vətəndaşların büdcəsinə təsir edir. Belə ki, Rusiya vətəndaşları müharibə səbəbindən digər Avropa ölkələrində rahat və təhlükəsiz istirahət edə bilmir, bank köçürmələri dondurulduğundan orada vəsaitlərindən rahat istifadə edə bilmirlər. Bu baxımdan, əlbəttə ki, MDB ölkələri həmçinin Türkiyə Rusiya vətəndaşları üçün çox əlverişli istirahət məkanıdır".

**Ekspert qeyd edib ki, Rusiya böyük ölkədir və bu baxımdan rusiyalıların Azərbaycana turist səfəri ölkəmizin büdcəsinə müsbət təsir edə bilər:** "Bu, həmçinin ölkəmizin qeyri-neft və turizm sənayesi sektorunun inkişafına çox əhəmiyyətli təsir göstərə bilər. Əlbəttə ki, Rusiya vətəndaşları ölkəmizdə rahat şəkildə istirahət edə bilir. Belə ki, ölkəmizdə onlar üçün dil baryerləri olmur, məlum olduğu kimi, Azərbaycan əhalisinin böyük qismi rus dilində danışa bilir, həmçinin onlar üçün bu bölgə çox da bahalı məkan sayılmır, məsafə baxımından da yaxındır. Həm də hansısa formada bizim birgə mədəniyyətimiz, yaşayışımız olub. Bu baxımdan Rusiya vətəndaşlarının Azərbaycana axınının ölkə iqtisadiyyatı üçün müsbət təsiri ola bilər.

Hətta gələcəkdə Rusiya vətəndaşlarının ölkəmizə investisiya qoyması, biznes investisiyalarında iştirak etməsi müsbət hal ola bilər. Daha bir məsələ, məlum olduğu kimi, bu gün Rusiyadan həm də beyin axını baş verir, ağıllı insanlar əsasən Gürcüstan və Ermənistana gedir. Bu baxımdan Rusiyanın ağıllı insanlarının ölkəmizə gəlişi həm texnoloji inkişafa, həm də informasiya texnologiyalarının inkişafına böyük töhfə verə bilər.

Bu baxımdan düşünürəm ki, burada biz ancaq müsbət iqtisadi təsirləri müşahidə edə bilərik. Onu da nəzərə alaq ki, Rusiya vətəndaşları ölkəmizə yalnız müvəqqəti turist səfəri edə bilir və bu, ölkəmizin qanunları ilə tənzimlənir. Bu baxımdan, rusiyalıların ölkəmizə axınının elə bir əhəmiyyətli təhlükəsi yoxdur".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 112 (8248) 5 iyul 2023



# Həbsxanalarda dustaqların sayını necə azaltmalı?

## Qeyri-rəsmi statistikaya görə, cəzaçəkmə yerlərində saxlanılan məhkumların 15-20 faizi az ağır cinayət törətmiş şəxslərdir

**Hüquqşünas Xalid Ağalıyev 46 ölkəni birləşdirən Avropa Şurasının məhbus hesabatına nəzər salıb. Novator.az-ın məlumatına görə, o yazır ki, 2022-ci ilin sonuna Avropa Şurası ölkələrinin həbs yerlərində 981 min 575 nəfər cəza çəkib:**

“Türkiyə 303 min 945 məhbusla birinci yerdə göstərilir. Bu, hər 100 min nəfərə 355 məhbus deməkdir. Gürcüstanda hər 100 min nəfərə 237, Azərbaycanda 217, Macarıstanda 194, Litvada 191, Polşada 190 məhbus düşüb”. Həbsxanalardakı sıxlıq baxımından Azərbaycanda hər 100 yerə 85,5 məhbus düşür ki, bu da Avropa üzrə orta göstəriciyə (84,5) bərabərdir. Hər bir məhkumun bir günlük xərci isə 10 manat civarındadır. Bir çox Azərbaycan həbsxanaları həddindən artıq doludur, əksəriyyəti hələ də müasir standartlara uyğun yenilənməyib. İkimərtəbəli baraklarda 350-500 və daha çox insan saxlanılır. 2020-ci ildə Azərbaycanın bir sıra penitensiar müəssisələrində məhkumların koronavirusun qarşısının alınması məqsədilə vaxtından əvvəl şərti azadlığa buraxılması həbsxanalarda vəziyyəti nisbətən yüngülləşdirdi.

Son olaraq mayın 8-də Prezidentin əfv sərəncamı ilə 801 məhkum azadlığa buraxılıb. Bu sərəncam şamil edildiyi şəxslərin dairəsinə görə müstəqil Azərbaycanın tarixində qəbul edilmiş ən böyük əfvdir.

Prezidentin 2017-ci il 10 fevral tarixli sərəncamı ilə cəza siyasətinin humanistləşdirilməsi üçün addımlar atıldı. Bu sərəncam 8 min məhkuma şamil olundu, 2 min 500 nəfər məhkum azadlığa qovuşdu. Bu sərəncamdan sonra həbs-qətimkan tədbirlərinin tətbiqi 40 faizə qədər azalıb. Bu cür tədbirlər cəzaçəkmə müəssisələrinin yüklənməsinin qarşısını alır. Qeyri-rəsmi statistikaya görə, ölkədəki cəzaçəkmə yerlərində saxlanılan məhkumların cəmi 15-20 faizi az ağır cinayət törətmiş şəxslərdir. Bundan başqa elektron cihazın taxılması ilə ev məhkumluğu haqda düzəlişlər vəziyyətin dəyişməsini hədəfləyib. Amma hələ də bəzi hakimlərin ağır cinayət törətməyənlərin həbsxanaya göndərdiyi haqda məlumatlar var. Vəziyyəti təməlli dəyişmək üçün daha nələr etmək lazımdır?

**“Bakı” Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov “Yeni Müsavat”a deyib ki, cəza sisteminin humanistləşdirilməsi haqqında qanunun qəbulundan sonra məhkəmə-hüquq sistemində müəyyən dəyişikliklər olub:** “Lakin indiyə qədər Azərbaycanda probasiya (hüquq nəzəriyyəsində bu anlayış şəxsin müəyyən şərtlərə riayət etməsi müqabilində cəzadan azad edilməsi anlamına gəlir- E.M.) cəmiyyətin vacib elementinə çevrilməyib. Halbuki probasiya və elektron nəzarətin (elektron biləzik) tətbiqi həbsxanaların yükdən azad edilməsinə və büdcə vəsaitlərinin qənaətinə yardım edəcəkdi. Prezident İlham Əliyev 10 fevral 2017-ci ildə "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi" ilə bağlı sərəncam imzalayıb. Sərəncama əsasən, cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icrasına effektiv nəzarətin təşkili və bu sahədə idarəetmənin səmərəliliyinin artırılması məqsədilə Ədliyyə Nazirliyinin Probasiya Xidməti yaradılıb. Həmçinin cəzaların icrası və qətimkan tədbirlərinin tətbiqi zamanı müasir İKT-dən istifadəni təmin etmək məqsədilə elektron nəzarət vasitələrinin tətbiq olunması tapşırılıb. Sərəncamın məqsədi cəza siyasətinin humanistləşdirilməsi, cinayət-hüquq siyasətinin liberallaşdırılması, cinayətlərin dekriminallaşdırılmasıdır. Cəza siyasətinin humanistləşdirilməsi məqsədilə iki istiqamət müəyyən olunub: məhkəmələrə cəzanın sosial ədalətin bərpası, məhkumun islah edilməsi məqsədlərini rəhbər tutmaları, cəza təyin etmənin ümumi əsaslarına ciddi riayət etmələri; qanunvericiliyin təkmilləşdirilməsi yolu ilə cinayət-hüquq siyasətinin liberallaşdırılmasına nail olunması. Bu məqsədlə cinayətlərin dekriminallaşdırılması, alternativ cəzaların tətbiqi, ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə həbs-qətimkan tədbirinin seçilməsi əsaslarının daha da məhdudlaşdırılması ilə bağlı qanun layihələrinin hazırlanması nəzərdə tutulub.

Cinayət Məcəlləsinin 52-1-ci maddəsinə əsasən alternativ cəza növlərindən biri də azadlığın məhdudlaşdırılmasıdır. Bu maddənin böyük ictimai təhlükə yaratmayan və əsasən az ağır və yüngül iqtisadi cinayətlər törətmiş şəxslərə şamil olunması nəzərdə tutulub. Bu qəbildən olan cinayətlərə görə azadlıqdan məhrumetmə cəzasının verilməsi məhkumların sayının artmasına və penitensiar müəssisələrin yüklənməsinə səbəb olur. Ona görə də cəzaların icrası zamanı müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə və profilaktik tədbirlərin tətbiqi məqsədilə elektron nəzarət vasitəsindən istifadə etmək tövsiyə olunur. Bununla yanaşı, alternativ cəza növlərindən və prosessual məcburiyyət tədbirlərindən istifadəni genişləndirmək də edilən tövsiyələr arasındadır. Çox təəssüf ki, biz hələ də məhkəmələrin bu istiqamətdə effektiv işini görmürük. Qanunda 10-a yaxın alternativ azadlıqdan məhrumetmə cəzası müəyyən edilib. Elektron bilərziklərin tətbiqi ilə bağlı işlər çox zəif gedir, baxmayaraq ki, dövlət başçısı bu barədə tələbi qəti formada qoymuşdu".

**Hüquqşünas deyib ki, cəza sisteminin humanistləşdirilməsi məsələsi müzakirə olunarkən, ömürlük həbs cəzasına məhkum edilən şəxslərlə bağlı da problemə diqqət etmək vacibdir:** “20 ildən artıq müddətdə həbsxanada cəzasını çəkmiş ömürlük dustaqların da cəzasının yüngülləşdirilməsi təklif olunsa da, hələ də həbsxanada belə şəxslər qalmaqdadır. İstənilən insan səhv edə bilər və ona özünü islah etmək üçün şans vermək lazımdır. Bir dustağın həbsxanada saxlanması üçün hər gün dövlət büdcəsindən 20 manat pul ayrılır. İldə 1 dustağa ayrılan vəsait 7 min 200 manatdır. Bu 20 manat təkcə qidalara xərclənmir, bu vəsaitə məhbusların mühafizəsi, penitensiar müəssisənin ətrafındakı hasarların təmiri və s. də daxildir. Bununla belə, bu məbləğ kiçik deyil. Niyə həbsxanaları boşaltmaq mümkün deyil? Ömürlük məhbusların yükü dövlət və vətəndaşların çiynindədir. Bu, çox aktual problemdir və belə məsələlər daim diqqətdə saxlanılmalı, çözülməlidir. Cinayətə görə cəzaların humanistləşdirilməsindən danışırıqsa, müəyyən kompromis sistemlərini ehtiva edən tədbirlər görməliyik. Hazırda həbsdə olan Qarabağ müharibəsi iştirakçılarına münasibətdə bu sistemi tətbiq etməliyik. Məhbusların çox olması dövlət üçün böyük yükdür. Statistik məlumatlara diqqət etsək, görərik ki, əmlak cinayətləri bütün qanunazidd hərəkətlərin yarıdan çoxunu təşkil edir. Təkcə oğurluq qeydə alınmış cinayətlərin 30 faizini təşkil edir. Bir kasıb digərindən oğurlayır, onu həbsxanaya basırlar və biz - bu cinayətlərdə heç bir günahı olmayan vergi ödəyiciləri öz cibimizdən o müftəxorların yedizdirilməsi, saxlanması üçün pul ödəyirik. Niyə bütün cəmiyyət bundan əziyyət çəkməlidir? Cinayətkar həbsxanada oturanda da dövlətə ziyan vurmaqda davam edir və üstəlik, hələ də cinayət aləmində özünə nüfuzlu yer tutmaq üçün ideyalarla yaşayır. Ona görə də hazırda prezidentin sərəncamını yerinə yetirmək vacibdir”.

**Hüquqşünas deyir ki, bu gün penitensiar sistemdə istehsalın olmaması çox ciddi problemdir:** “Təsəvvür edin ki, dələduzluq cinayətinə görə həbs edilənlərə cəza verilir və eyni zamanda onlara qarşı vurduqları ziyan həcmində mülki iddialar təmin olunur. Dələduzluq cinayətini törədən gedib oturur həbsxanada, illərini keçirdir və çıxır. Mülki iddia isə təmin edilməmiş qalır. Penitensiar sistemdə istehsalat olsaydı, adamı işə göndərib qazancını da vurduğu ziyanın ödənməsinə yönəltmək olardı. Bu, həm də məhbusların islah olunmasını da əngəlləyən amillərdən biridir. Nəticədə azadlığa çıxan insanların 65 faizi yenidən həbsxanalara qayıdır. Biz böyük həcmdə təkrar cinayətlər törədən məhkumlarla məşğul oluruq. Sovet dövründə bu göstərici 30 faiz təşkil edib. İnsanlar ona görə həbsxanaya qayıdır ki, orada yemək, tibbi xidmət və s. bağlı qayğılar yoxdur. Həm də orada ətrafları öz kriminal ünsürləridir və müəyyən statusları da var". **Hüquqşünas hüquq-mühafizə və məhkəmə orqanlarının niyə sərt və maksimal cəzalar təyin etməkdə maraqlı olduqlarının səbəblərinə də toxunub:** "Bu sahədə korrupsiyanın haradan qaynaqlandığı bilmək üçün elə də dərin biliklərə sahib olmaq vacib deyil. İnsanlara maksimum cəza kəsməklə və sonradan müəyyən məbləğlər nəticəsində cəzanı yumşaltmaqla pul qazanırlar. Yəni sərt cəzalar spekulyasiyalara yol açır deyə, daha çox bu cəzalara müraciət olunur". **Hüquqşünas vurğulayıb ki, vəziyyətdən çıxış yolu var**: “Prezidentin məhkəmə-hüquq sistemi ilə bağlı imzaladığı sərəncamı vicdanla, tez bir zamanda yerinə yetirməklə durumu müsbətə doğru dəyişmək mümkündür”.

**❑ E.MƏMMƏDƏLİYEV,**
**“Yeni Müsavat”**

Yeni MÜSAVAT
N 112 (8248) 5 iyul 2023

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

**Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin sakinləri öz yurd-yuvalarına qayıtmaqlarını səbirsizliklə gözləyirlər. Laçın və Kəlbəcər rayonlarının sakinlərindən imkan olan hər kəs yay aylarında heyvanlarını, arılarını götürərək doğma yurdlarına gedirlər. Bugünlərdə Kəlbəcər rayonunun Başlıbel kənd sakinlərinin sosial şəbəkə paylaşımlarından aydın olub ki, yay aylarında doğma yurduna gedərək çadır qurub orada qalanların sayı ildən-ilə artır. İnsanlar yaşayış evlərinin tikintisini gözləmədən bütün çətinliklərə dözərək öz kəndlərində yaşamağa çalışırlar.**




# Azad olunan ərazilərdə çadır qurub yaşayanlar var

## Böyük qayıdış prosesi necə gedir?

Aydın məsələdir ki, 30 il vətən həsrəti çəkən insanlar üçün azad olunmuş yurduna kənardan baxmaqla kifayətlənmək çətin məsələdir: hamı bir an öncə öz obasına dönməyi arzulayır, bir çoxları isə səbirsizlənərək prosesin gec getməsindən gileylənir. Lakin Vətən müharibəsindən keçən müddət göstərir ki, yay aylarında bir neçə həftəlik doğma yurdda qalmaqla, orada daimi yaşamaq çox fərqli şərtlər tələb edir: ərazilər minalardan təmizlənmədən, qaz, su, elektrik enerjisi, yol təminatı həyata keçirilmədən, ən əsası insanlar üçün iş yerləri yaradılmadan ərazilərə kütləvi köçürülməni həyata keçirmək mümkün deyil. Məlumdur ki, bu ilin mayında Laçın şəhərinə əhalinin köçürülməsinə başlanıb. İndiyədək 217 nəfərdən ibarət 57 ailə Laçına köçürülüb, ilin sonunadək 700-dən yuxarı ailənin köçürülməsi nəzərdə tutulur. May ayında köçən sakinlərin mətbuata verdikləri açıqlamalardan aydın olur ki, onlar Laçında ərzaq təminatı, iş baxımından çətinliklər yaşayırlar. Bu isə o deməkdir ki, hətta evlər, xidmətlər olan ərazilərdə də məskunlaşmaq bir sıra çətinliklərlə müşayiət olunur.

Azərbaycan hökuməti Böyük Qayıdış üzrə dövlət proqramının icrasına ayrılan vəsaitlərin həcmini sürətlə artırır. Maliyyə Nazirliyinin məlumatına əsasən, 2023-cü ilin yanvar-mart aylarında dövlət büdcəsinin xərcləri 6 milyard 566,9 milyon manat və ya rüblük proqnoza qarşı 11,6 faiz çox icra edilib. Bu il üçün dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası məqsədilə nəzərdə tutulmuş 3 milyard manatın birinci rübdə 35,5 faizi və ya 1 milyard 67 milyon manatı istifadə olunub. Bunun 1 milyard 42,5 milyon manatını Avtomobil yolları Dövlət Agentliyi, 13,0 milyon manatı "Meliorasiya və Su Təsərüffatı" ASC, 6,0 milyon manatı Minatəmizləmə Agentliyi, 5,5 milyon manatı digər icraçılar tərəfindən xərclənib.

2023-cü il dövlət büdcəsinə edilən dəyişiklikdən aydın olur ki, azad olunan ərazilərdə bərpa və yenidənqurma işlərinin sürətləndirilməsinə əlavə olaraq 2 milyard 260 milyon manat ayrılmaqla onun ümumi həcmi 5 milyard 260,0 milyon manata çatdırılacaq.

Hökumət ilk öncə rayon mərkəzləri, böyük şəhərləri məskunlaşdırmaq niyyətindədir. Açıqlanan rəsmi məlumatlardan aydın olur ki, "Böyük Qayıdış" Dövlət Proqramı çərçivəsində keçmiş sakinlərin Şuşaya qayıtması və onların layiqli həyat şəraitinin yaradılmasını təmin etmək üçün artıq ötən ilin avqust-sentyabr aylarından başlayaraq 23 bina, 450 mənzildən ibarət yaşayış kompleksinin tikintisinə start verilib. Azərbaycan Prezidentinin Şuşa şəhərində xüsusi nümayəndəliyinin baş məsləhətçi Kənan Quliyevin verdiyi məlumata əsasən, Prezident İlham Əliyevin Şuşa şəhərinə son səfəri zamanı da 17 binanın təməli qoyulub.

Onun sözlərinə görə, 23 bina layihəsinə uyğun olaraq 2023-cü ilin sonundan etibarən 450 mənzilə təxminən 1 500 nəfərin köçürülməsi nəzərdə tutulur. Əlavə olaraq, ümumtəhsil məktəbinin və rayon mərkəzi xəstəxanasının inşası davam etdirilir. Keçmiş poçt binasının əsaslı təmirinə başlanılıb. Bina özündə ASAN, DOST, KOB-u birləşdirəcək. Bu layihənin də yekunlaşdırılması 2023-cü ilin sonlarına planlaşdırılır.

**Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Namiq Hümmətovun verdiyi məlumatda isə qeyd olunur ki, 2025-ci ildə Ağdam şəhərinə ilk sakinlər qayıdacaqlar. 2027-ci ilədək şəhərdə təxminən 10 min mənzil inşa olunacaq**: "2022-2026-cı illərdə Qarabağ və Şərqi Zəngəzurda 34,5 min mənzilin tikilməsi planlaşdırılır. Ağdam rayonunda 9,7 min mənzilin tikilməsi planlaşdırılıb. 2025-ci ildə Ağdam şəhərinə və ilk bərpa olunan kəndlərə əhalinin köçürülməsi nəzərdə tutulub".

Öz növbəsində, "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin icraçı direktoru Övsət Həmidov qeyd edib ki, Ağdamda 24 min nəfərdən çox sakinin yaşayacağı 5 min mənzillik beş yaşayış məhəlləsi inşa ediləcək. O bildirib ki, 2026-cı ilin sonunadək Ağdam şəhəri və ətraf kəndlərə 42 min insan köçürüləcək.

Hökumət eyni zamanda Cəbrayıl, Qubadlı, Zəngilan, Füzuli şəhərlərində yaşayış, dövlət və ictimai binaların tikintisinə başlayıb. Bir sıra kəndlərdə də tikinti işləri həyata keçirilməkdədir.

Aydın məsələdir ki, əhalinin azad olunan ərazilərdə sərbəst yaşaması üçün onların təhlükəsizliyinin təmin olunması ən ümdə vəzifədir. Ermənistan tərəfinin yekun sülh sazişi və sərhədlərin demarkasiyasına yaratdığı problemlər bu sahədə çətinliklər yaradır. Buna görə də Azərbaycan dövləti müdafiə qabiliyyətini, ordunun potensialını artırmağı azad olunan ərazilərin bərpası qədər vacib hesab edir. Təsadüfi deyil ki, bu ilin dövlət büdcəsinə edilən dəyişikliklə ölkənin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin daha da artırılması üçün əlavə olaraq 1 milyard 105,0 milyon manat yönəldiləcək. Artımdan sonra xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər 2 milyard 70,0 milyon manat təşkil edəcək.

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Dünya SAKİT**

# Tiflis vasitəçi roluna niyə həvəslidir?

## **Politoloq:** "Gürcüstan 30 ilə yaxın hökm sürən münaqişədən kifayət qədər fayda götürmüş tərəfdir, indi..."

**"Gürcüstan göstərdi ki, Azərbaycanla Ermənistan arasında münasibətlərdə effektiv vasitəçi olmağa qadirdir və lazım gələrsə, prosesə yenidən qoşulmağa hazırdır". Bu barədə Gürcüstan hökumətinin başçısı İrakli Qaribaşvili parlamentdə bildirib.**



Qaribaşvili xatırladıb ki, 2021-ci ilin iyununda Gürcüstanın vasitəçiliyi ilə Azərbaycan hakimiyyəti 15 erməni əsiri azad edib, Ermənistan isə minalanmış ərazilərin xəritələrini Azərbaycan tərəfinə verib. Daha sonra Gürcüstanın baş naziri "Sülh Qonşuluq Təşəbbüsü" ilə çıxış etdi - o, qonşulara qeyri-rəsmi dialoq üçün regional platforma yaratmağı təklif etdi.

"İki il əvvəl onlar Azərbaycan və Ermənistan arasında ilk konkret nəticələri göstərdilər. Sonra şəxsən mən də daxil oldum. Və bu vasitəçilik, asanlaşdırma konkret nəticə ilə başa çatdı. Bu, belə demək mümkünsə, regionda nümunəvi vasitəçiliklərdən biri idi" - Qaribaşvili deyib.

**Baş nazir Gürcüstanın bundan sonra da vasitəçi rolunu oynamağa hazır olduğunu bildirib:** "Mən bu tribunadan tam hazır olduğumuzu bir daha açıq şəkildə təsdiq etmək istəyirəm. Lazım gələrsə, biz iki ölkə, dostlarımız arasındakı prosesə bir daha qoşulmağa hazırıq. Bu, çox vacib istiqamətdir", - Qaribaşvili bildirib.

Tiflis vasitəçi roluna niyə həvəslidir və bu cəhdlər digər vasitəçilərdən nə ilə fərqlənə bilər?

Politoloq Yeganə Hacıyeva "Yeni Müsavat"a bildirdi ki, Gürcüstan 30 ilə yaxın Ermənistan-Azərbaycan arasında hökm sürən münaqişədən, ünsiyyətin olmamasından kifayət qədər fayda götürmüş tərəfdir. Bu 30 il ərzində Cənubi Qafqazda öz mövqelərini gücləndirmiş ölkədir: "Cənubi Qafqazın üç ölkəsindən ikisinin bir-biri ilə konfliktdə olması üçüncüsünə müəyyən imkanlar yaratmışdı. Gürcüstan dövləti bu imkanlardan faydalanmışdı. 2020-ci ildəki 44 günlük Vətən müharibəsindən sonra isə Cənubi Qafqazda güclər balansı dəyişdi və bununla bərabər bölgədə oyun konfiqurasiyaları da dəyişdi. Bu oyun konfiqurasiyalarında da Gürcüstanın əvvəlki uduşlu halı da dəyişdi. Ümumilikdə 44 günlük Vətən müharibəsindən sonra dəyişən reallıqda Gürcüstanın mövqeləri də dəyişikliyə uğradı. Gürcüstan regionun logistik imkanların, iqtisadi imkanların artırılması istiqamətində atılan addımların bir neçəsində iştirak etmədi. Məsələn, regionda 3+3 əməkdaşlıq formatı elan ediləndə Tiflis burada təmsil olunmaqdan imtina etdi. Gürcüstan bunu Rusiyanın bu formatda olması ilə əsaslandırdı. Amma 2021-ci ildə Gürcüstanla Rusiya arasında ticarət dövriyyəsi artaraq 1 milyard dolları keçmişdi. Ticari əməkdaşlıq bu gün də artan istiqamətdədir".

**Gürcüstanın indi Azərbaycanla Ermənistan arasında vasitəçilik, moderatorluq etmək təklifinin digərlərindən** faydasının, fərqinin olub-olmayacağına gəlincə, politoloq hesab edir ki, əvvəla, regional hər hansı bir gücün Ermənistan-Azərbaycan danışıqlarında moderatorluq etmək imkanları yoxdur. Bu, təkcə Gürcüstanla bağlı deyil. Təcrübə də göstərir ki, bu tipli vasitəçilik nəticə vermir. Rusiya amili buna imkan vermir. Hal-hazırkı mərhələdə danışıqlarda güc təsiri olaraq vasitəçi kimi ancaq ABŞ-ın moderatorluğu formatı pozitiv nəticə verə bilər: "Bu da bir neçə nüansa bağlıdır. Yəni diplomatik rıçaqlara, informasiya rıçaqlarına və sair. Tiflis vasitəçi rolunda oynamağa həvəslidir, lakin digərlərindən ciddi fərqlənə biləcəyi imkanları yoxdur. Bu da Gürcüstanın vasitəçiliyini cazibədar etmir. Gürcüstan Ermənistanla Azərbaycan arasında vasitəçilik etməyə həm də ona görə həvəslidir ki, bu ölkə Avropa İttifaqının regionda atdığı addımların operatoru rolunda çıxış etmək istəyir. Avropa İttifaqı formatında ola biləcək məsələləri özünün həyata keçirməsi təşəbbüsündədir".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

## Ələt-Astara yolunda 3 nəfərin öldüyü qəzanın təfərrüatı



**DİN-in Baş Dövlət Yol Polisi İdarəsi dünən Ələt-Astara yolunda 2 nəfərin öldüyü qəza barədə məlumat yayıb.**

BDYPİ-dən verilən xəbərə görə, iyulun 3-də Ələt-Astara yolunun 70-ci km-də Rusiya Federasiyası vətəndaşı U.Kərimovun idarə etdiyi "Volvo" markalı B082OK06 nömrə nişanlı yük avtomobili qarşıda hərəkət edən Bakı şəhər sakini Fərziyev Məhərrəm Balaxan oğlunun idarə etdiyi "VAZ-21051" markalı 99-NA-636 nömrə nişanlı avtomobillə toqquşub. Nəticədə "VAZ-21051" markalı avtomobilin sürücüsü və 2 nəfər sərnişini dünyasını dəyişib.

İlkin ehtimala görə, qəzanın baş verməsinə səbəb yük avtomobili sürücüsünün diqqətsizliyi və "VAZ-21051" markalı avtomobilin sürücüsünün sürət həddi yüksək olan magistral yolda sağ zolaq boş olduğu halda avtomobili sol zolaqla və aşağı sürətlə idarə etməsidir.

Eyni zamanda "VAZ-21051" markalı avtomobilin istismar müddətinin 33 ildən artıq olması, texniki vəziyyətinin müasir tələblərə cavab verməməsi və qəza zamanı böyük əhəmiyyət kəsb edən təhlükəsizlik avadanlıqlarının olmaması bu qəzada ölüm hallarının baş verməsinin əsas səbəblərindəndir.

## Əsgərlikdən yayınmaq üçün saxta rəy verən həkim ifşa olundu



**Hərbi xidmətə yararsız olmaya dair saxta tibbi rəy verməkdə təqsirləndirilən həkim məsuliyyətə cəlb olunub.**

Bu barədə Baş Prokurorluğun Mətbuat Xidmətindən məlumat verilib.

Bildirilib ki, "Sabunçu Tibb Mərkəzi" Publik Hüquqi Şəxsdə şöbə müdiri vəzifəsində işləyən Qaracayev İlqar Qaraca oğlunun qanunsuz əməlləri barədə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işinin istintaqı aparılır.

Belə ki, İlqar Qaracayevin qeyd olunan vəzifədə işləyərkən hərbi xidmətə yararlı olan ayrı-ayrı çağırışçıların hərbi xidmətə yararsız hesab edilmələri barədə saxta tibbi rəylərin verilməsi müqabilində onlardan 18 min manatdan artıq məbləğində rüşvət almasına əsaslı şübhələr müəyyən edilib.

İş üzrə toplanmış ilkin sübutlar əsasında İlqar Qaracayevə Cinayət Məcəlləsinin 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən istifadə etmə), 311.3.2 (təkrar rüşvət alma), 313 (vəzifə saxtakarlığı) və digər maddələri ilə ittiham elan edilərək səhhəti və yaşı nəzərə alınmaqla barəsində məhkəmənin qərarı ilə ev dustaqlığı növündə qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə istintaq davam etdirilir.

## Zəlzələdə kimlər çaxnaşma yaratmaq istədi?

### Bakıda hiss olunan yeraltı təkanlar həm də bu təhlükəni üzə çıxardı



**Xəzər dənizində baş verən, şimal bölgəsində, Abşeron və Bakıda hiss olunan zəlzələ Azərbaycanda təkcə təbii fəlakət təhlükəsini yox, həm də "çaxnaşma təhlükəsi"ni ortaya çıxardı.**

Küçələrdə yaşanan çaxnaşma insanların təşviş keçirməsi fonunda təbiidir, Türkiyədə baş verən və oradakı qardaşlarımızla birlikdə günlərlə yaşadığımız hisslər bu qorxunu daha da gücləndirib. Bu baxımdan, xüsusilə hündürmərtəbəli binaların çoxluq təşkil etdiyi paytaxt sakinlərinin gecəni küçədə keçirməsi normal haldır.

Normal olmayan evlərdə hiss olunan zəlzələnin növbəti dalğasının sosial platformalarda baş verməsidir. Çaxnaşma təhlükəsi də bu zaman ortaya çıxdı.

Növbəti dalğaların dəqiqəsinə və neçə bal olacağına qədər "nöqtə" proqnozlar yayılmağa başlandı: 02:21 - 6,1 bal; 04:21 - 5,8 bal; 06:32 - 6,0 bal;

Fotoskrin olaraq yayılan bu məlumat çaxnaşmaya səbəb oldu. Halbuki dünya təcrübəsində indiyə qədər zəlzələnin bu qədər dəqiq vaxtını və gücünü müəyyən etmək mümkün olmayıb. Bununla yanaşı, təcrübə zəlzələnin birinci dalğasından sonra avterşokların daha zəif olduğunu təsdiqləyib. Məlumatın mənbəyini araşdırmaq və ağılla analiz etmək, belə informasiyaların yalan olduğunu müəyyən etməyə imkan verir. Lakin təşviş içində olan insanların psixoloji olaraq bunu etməsi çətindir və bu, feyknyusun sürətlə yayılmasına gətirib çıxarır. (Publika.az)

Əsas məqam çaxnaşma təhlükəsinin kimlər tərəfindən və hansı məqsədlə yaradılmasıdır. Burada birdən çox maraqlı tərəf ola bilər:

1. Xarici xüsusi xidmət orqanları: hadisənin baş verdiyi ölkənin ictimai rəyinə infomüdaxilələrin edilməsi həmişə aktualdır;

2. Maraqlı qruplar: onlar cəmiyyətdə qorxunun yaradılması və bunun üzərindən dövlətə inamın itməsinə çalışırlar;

3. Diqqət mərkəzinə düşmək istəyənlər: belələri sırf maraq oyatmaq, diqqət çəkmək üçün nəticəni hesablamadan saxta məlumatları tirajlayır.

**Saxta məlumatlar iki halda ictimai rəydə özünə yer edə bilir**:

- birincisi, dövlət orqanları baş vermiş hadisəyə operativ reaksiya verməyəndə;

- ikincisi, cəmiyyətin infotəhlükəsizliyində boşluqlar olanda.

Zəlzələ baş verəndən sonra həm dövlət orqanları, həm də mütəxəssislərin operativ reaksiyasının şahidi olduq: DİN, TƏBİB, FHN gücləndirilmiş iş rejiminə keçdi; seysmoloqlar fikir və proqnozlarını verdilər.

Bu, yaranmış çaxnaşma abı-havasını müəyyən qədər də olsa normallaşdırdı. Lakin tam aradan qalxmadı, çünki informasiya təhlükəsizliyində problemlər var, xüsusilə cəmiyyətimizdə hələ də "niquşizm" xəstəliyi qalmaqdadır. Bu baxımdan, baş verən zəlzələ zamanı çaxnaşma yaratmağa hesablanmış məlumatların mənbəyinin araşdırılmasına ehtiyac var, ən azından, ictimai rəyin informasiya gigiyenasını təmin etmək üçün...

## Zəlzələ daşınmaz əmlak bazarına necə təsir edəcək?

### Həyət evləri bahalaşa bilər



**Xəzər dənizinin Dağıstan sahillərində 5,7 bal gücündə zəlzələ baş verib. Zəlzələ paytaxt Bakıda, Sumqayıt və Abşeron yarımadasında da hiss edilib. Yeraltı təkan Bakıdan 170 kilometr məsafədə 10 min metr dərinlikdə qeydə alınıb.**

Azərbaycanda baş verən zəlzələ gecədən etibarən mətbuatın gündəmindədir. Hadisədən sonra çoxmərtəbəli binaların dayanıqlıq dərəcəsi, həyət evlərinin təhlükəsiz olması əsas müzakirə edilən mövzulara çevrilib. Hətta həyət evlərinin qiymətinin bahalaşacağı, bina evinin ucuzlaşacağı qeyd olunur.

Fevral ayında qardaş Türkiyənin 11 bölgəsində baş verən güclü zəlzələ nəticəsində çoxmərtəbəli binaların yerlə bir olması da insanlarda vahiməyə səbəb olub. İnsanlarda belə binalarda yaşamaq qorxusu yaranıb. Bütün bu baş verənlər səbəbindən iddia olunur ki, perspektivdə həyət evlərinə maraq daha da artacaq. Bu da öz növbəsində qiymətlərə təsir edəcək.

Maraqlıdır, bu iddialar nə dərəcədə doğrudur? Zəlzələ daşınmaz əmlak bazarına hansısa formada təsir edəcəkmi?

**Mövzu ilə bağlı Oxu.az-a açıqlama verən iqtisadçı-ekspert Eyyub Kərimlinin sözlərinə görə, Türkiyədə baş verən zəlzələdən sonra Azərbaycanın daşınmaz əmlak bazarında da müəyyən təlatümlər yaşanıb:** "Türkiyədə baş verən zəlzələ zamanı da bizim daşınmaz əmlak bazarında müəyyən təlatümlər baş verdi. İnsanlar daha çox köhnə sovet binalarına və daha çox həyət evlərinə üstünlük verdilər. Lakin bu, müvəqqəti xarakter daşıdı. Hesab edirəm ki, daşınmaz əmlak bazarında qiymət formalaşması təbii yox, subyektiv təsirlər hesabına müəyyənləşir".

**E.Kərimli qeyd edib ki, mənzillərin qiymətində ciddi dəyişiklik hiss olunmayacaq:** "Qısa zaman ərzində çoxmərtəbəli binaların satışında azalma baş verə bilər. Amma inanmıram ki, sahibkarlar qiyməti endirsinlər. Tələb aşağı düşəndə də qiymətləri endirmirlər. Hər zaman gözləmə mövqeyində dayanırlar. Qiymət dəyişikliyi müşahidə etməyəcəyik. Qısa zaman ərzində köhnə binaların və həyət evlərinin qiymətində artım müşahidə edilə bilər".

**İqtisadçı Emin Qəribli isə əlavə edib ki, Türkiyədə baş verən dəhşətli zəlzələdən sonra Azərbaycanda həyət evlərinə daha çox üstünlük verilib:** "Daşınmaz əmlak qiymətlərinə baxsaq, görərik ki, Türkiyədə baş verən zəlzələdən sonra qiymətlərdə müəyyən dəyişikliklər oldu. Bu, Azərbaycandan da təsirsiz ötüşmədi. Azərbaycanda o dövrdən bu günə qədər həyət evlərinə üstünlük verirlər. Bina evlərinə tələbat sanki bir qədər azaldı".

**Ekspert zəlzələnin daşınmaz əmlak bazarına köklü təsir etməyəcəyini qeyd edib:** "Bizdə baş verən zəlzələ güclü deyil. Türkiyədəki zəlzələdən bu günə o qədər də çox vaxt keçməyib. Müəyyən təsirləri olacaq. Yay aylarında daşınmaz əmlakda canlanma olur. Müəyyən dərəcədə təsir edəcək. Bir ay sonra ümumiyyətlə fəsadlar azalacaq. Köklü təsir edəcəyinə inanmıram. Zəlzələ Türkiyədəki qədər güclü deyil. Ona görə də daşınmaz əmlak bazarına güclü təsirinin olmayacağını güman edirəm.

**E.Qəriblinin qənaətincə, Azərbaycan elə bölgədə yerləşir ki, bu tip hadisələr vaxtaşırı baş verə bilər:** "Zənnimcə, insanların seçimində dəyişikliklər olacaq. 2000-ci ildə baş verən zəlzələdən sonra bir çox insanlar çoxmərtəbəli binalara üstünlük vermirlər. İllər keçdikcə tendensiya dəyişəcək. Üç, beş və ya doqquzmərtəbəli binalara üstünlük daha çox olacaq".

YENİ MÜSAVAT
N 112 (8248) 5 iyul 2023

# Ölkəmizə rekord həcmdə palma yağı idxal edilib

## Ekspertlər bildirir ki, yeyinti sənayesi, xüsusilə də qənnadı məmulatlarının, dondurmanın istehsalçıları palma yağının istifadəsinə üstünlük verir

**2022-ci ildə Azərbaycana rekord həcmdə palma yağı idxal olunub. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, ötən il ərzində ölkəmizə 115 milyon 819,08 min dollarlıq 72 559,1 ton xam palma yağı və onun fraksiyaları idxal olunub. Bu, 2021-ci ildəki idxalla müqayisədə çəki ifadəsində 43,6 faiz, dəyər ifadəsində isə 87 faiz artım deməkdir. Xatırladaq ki, 2021-ci ildə palma yağı idxalı 61944,22 dollarlıq 50530,04 ton olmuşdu.**

Statistikadan o da görünür ki, 2021-ci ildə palma yağının 1 tonu 1226 dollara, 2022-ci ildə isə 1596 dollara idxal edilib.

2023-cü ilin yanvar-aprel aylarında isə Azərbaycana 14 milyon 675 min dollar dəyərində 11 min 849 ton "xam palma yağı və onun fraksiyaları" idxal edilib. Beləliklə, bir tonun qiyməti 1238 dollara düşüb. Dövlət Statistika Komitəsinin məlumatına görə, dörd aylıq idxal həcmi 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 51 faiz və ya 12 min 370 ton azalıb. Belə ki, 2022-ci ilin ilk 4 ayında Azərbaycana 38 milyon 131 min dollar dəyərində 24 min 219 ton "xam palma yağı və onun fraksiyaları" idxal edilmişdi.

Qeyd edək ki, hesabat dövründə Azərbaycana Malayziyadan 5 min 937 ton, İndoneziyadan isə 5 min 911 ton palma yağı idxal edilib.

Maraqlıdır, qiymətlərin baha olduğu 2022-ci ildə palma yağının ölkəyə idxalındakı bu rekord artım nəylə bağlıdır və gətirilən yağ harada istifadə olunub? Dünyada palma yağı ən çox marqarin yağı, unlu və şəkərli qənnadı məmulatlarının - şokolad, konfet, müxtəlif peçenyelər və sairin istehsalında istifadə olunur. Və az qala bütün dünyada qida məhsullarına qoyulan tələb var: tərkibinə daxil edilən bütün inqridiyentlər qablaşdırmanın üzərində əksini tapmalıdır. Azərbaycanda da qida məhsulları istehsalçılarına bu tələb qoyulur. Lakin son vaxtlar AQTA-nın kolbasa-sosiska məhsullarında apardığı yoxlamalar göstərir ki, yerli istehsalçılar məhsulun tərkibini üzərində yazılandan fərqli etməkdən çəkinmirlər. Bu mənada, Azərbaycanda hansı məhsulların istehsalında və nə qədər palma yağından istifadə olunduğunu üzərində əksini tapan məlumat əsasında müəyyən etmək qeyri-mümkündür.

Yuxarıda da qeyd etdik ki, ötən il ölkəyə rekord həcmdə palma yağı gətirilib. Məlumdur ki, palma yağı son 30 ildə marqarin istehsalında trans yağların əsas əvəzedicisi rolunu oynayır. Bütün dünyada marqarin istehsalında palma yağından geniş istifadə olunur. Azərbaycan statistikasından aydın olur ki, ötən il ölkədə marqarin istehsalında 85 faiz artım qeydə alınıb: 60 min tona yaxın marqarin istehsal edilib. Bunun cəmi 1536,41 tonu ixraca yönəldilib.



2023-cü ilin dörd ayında marqarin istehsalı 14697,3 ton (ötən ilin eyni dövründəkindən 30,9 faiz az), ixracı isə 412,17 ton təşkil edib. Bu isə o deməkdir ki, istehsal olunan marqarinin böyük hissəsi daxildə istehlak olunub. Rəsmi statistikadan da aydın olur ki, 2015-ci ildə əhalinin marqarin istehlakı 13 min ton təşkil edibsə, 2021-ci ildə bu rəqəm 41 min tonu keçib. 2015-ci il devalvasiyalarından sonra əhalinin alıcılıq qabiliyyətinin kəskin azalması fonunda ucuz marqarin yağlarının istehlakının belə artması təəccüblü görünmür. 2022-ci ildə ölkədə 20 faizə yaxın ərzaq inflyasiyasının qeydə alındığını nəzərə alsaq, o zaman istehsal olunan 60 min ton marqarinin ixrac olunmayan 58 min tonunu əhalinin istehlak etdiyini söyləyə bilərik. Buraya həm yağ kimi birbaşa istehlak, həm də müxtəlif qida məhsullarının tərkibində istehlak aiddir. İldə 5-6 min ton marqarin qida məhsullarının istehsalında istifadə edilir.

Ekspertlər bildirir ki, yeyinti sənayesi, xüsusilə də qənnadı məmulatlarının, dondurmanın istehsalçıları palma yağının istifadəsinə üstünlük verirlər. Qeyd edilən sahələrin müəyyən inkişafı palma yağına tələbatı da zaman-zaman artırmaqdadır. Digər məsələ isə ondan ibarətdir ki, bəzi iddialara əsasən, Azərbaycanda qida sənayesində istehsal prosesinə zəif nəzarət bir sıra iş adamlarının fürsətdən istifadəsinə və palma yağını kərə yağı adı altında son istehlak üçün təqdim etməsinə səbəb olur.

Qeyd edək ki, palma yağı 1970-ci illərdən İndoneziya və Malayziyada yemək yağı kimi istifadə olunur. Dünyada palma yağının ən böyük istehsalçı və ixracatçıları da elə İndoneziya və Malayziyadır. Bu iki ölkə birlikdə qlobal palma yağının 80 faizini istehsal edirlər. Hazırda qlobal bitki yağı istehsalının 33 faizi məhz palma yağıdır. 2015-ci ildən etibarən palma yağının sənaye istehsalının həcmi digər bitki yağlarından 2,5 dəfə yüksək olmağa başlayıb. Elə həmin ildən etibarən dünyada palma yağının insan orqanizminə mənfi təsirlərinə dair məqalələr, materiallar dünya mətbuatına çıxmaqdadır. Bu materiallardakı əsas iddia palma yağında konserogen maddələrin olması barədədir. 2016-cı ildə Avropa Qida Təhlükəsizliyi Təşkilatının sifarişi ilə aparılan tədqiqatlar zamanı məlum oldu ki, palma yağında hansısa xüsusi konserogen maddə mövcud deyil. Sadəcə, bütün bitki yağları kimi onu da bir neçə dəfə 200 dərəcəyə qədər qızdırdıqda tərkibində dəyişiklik baş verir, konserogen maddələr yaranır.

2019-cu ildə Ümumdünya Səhiyyə Təşkilatının ekspertlərinin palma yağı ilə bağlı tədqiqat apardığına dair məlumat açıqlandı. Həmin məlumatda qeyd olunurdu ki, palma yağından istifadə piylənmə və qlobal miqyasda xroniki xəstəliklərin inkişafına gətirib çıxarır, onun istehsalı isə təbiətə zərər vurur. Tədqiqat hesabatının müəllifləri sağlamlığa və ətraf mühitə dəyən zərərin səviyyəsinə görə palma yağının istehsal və satış sənayesinin miqyasını birbaşa tütün və alkoqol sənayesilə müqayisə edirdilər. Təşkilatın ekspertləri tərəfindən aparılmış təhlil zamanı dünyanın 23 ölkəsində palma yağı istehlakının artması ilə işemik ürək xəstəliklərinin artması arasında əlaqənin olduğunu müəyyən edilib.

ÜST hesabatının müəllifləri etiraf edirlər ki, bəzən elmi jurnallarda palma yağının zərərsizliyi və hətta sağlamlıq üçün faydası barədə məqalələr çıxır. Lakin sənədin hazırlanması zamanı məlum olub ki, doqquz bu cür məqalədən dördünü Malayziya Kənd Təsərrüfatı Nazirliyinin bu sənayenin inkişafına cavabdeh olan şöbəsinin əməkdaşları hazırlayıblar.

Hesabatda ayrıca bildirilib ki, hələ 2003-ci ildə ÜST və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) palma yağının sağlamlığa mümkün zərərlərinə diqqət çəkib. Lakin o zamandan bəri palma yağının dünyada istehsalı və istehlakı ikiqat artıb, 1995-ci ildən 2017-ci ilədək müddətdə isə palma yağı istehsalı dörd dəfə artıb. Bu cür artımın səbəblərindən birini hesabatın müəllifləri məhsullarını bazarlara çıxarmaq üçün güclü lobbi yaratmış hazır yemək və yarımfabrikat istehsalçılarında görürlər. Hesabat müəllifləri qeyd edirlər ki, dünya boyunca lobbiçilər palma yağının hazır məhsulun tərkibində olduğunu istehlakçılara bildirmək istəyən istehsalçıların bütün cəhdlərinə dirəniş göstərirlər. İnqridiyentlər siyahısında, palma yağı 200-dək alternativ ad altında göstərilə bilər, misal üçün, sadəcə, "bitki yağı kimi".

Reallıqda heç bir heyvan və bitki yağında, hətta balıq yağında belə palma yağındakı qədər A vitamini yoxdur. Bu yağın tərkibində zərərli xolesterin yoxdur. Tərkibindəki doymamış yağlar beyinin sağlamlığında mühüm rol oynayır. Yağın əsas zərərli tərəfi onun tərkibində həm də doymuş yağların çox olmasıdır. Belə yağlar adətən çətin həzm olunur, qan damarlarının divarlarında toplanaraq ürək-damar xəstəliklərinin yaranmasına səbəb olur. Palma yağının əsas çatışmazlığı və zərəri kimi 50 faiz doymuş yağlardan ibarət olması göstərilir. Halbuki kərə yağında bu göstərici 66 faiz, kakao yağında 62 faiz təşkil edir. Buna görə də palma yağından bütün yağlar kimi, qaydasında istifadə edilməsi məqsədəuyğundur.

Palma yağı maye deyil, qatı halda olur. Saxlanma müddəti artdıqca qatılıq da artır. Məsələn, təzə yağ 27 dərəcə temperaturda əriyirsə,1 həftəlik yağı əritmək üçün 42 dərəcə lazım gəlir. Tərkibindəki yüksək beta-karotinə görə təzə yağın rəngi narıncı olur. Yeyinti sənayesində 200 dərəcəyədək qızdırılaraq rəngsizləşdirilmiş yağdan istifadə olunur. Bu sektorda həmçinin tam təmizlənmiş, bir neçə dəfə rafinə olunan palma yağından istifadə edilir. Bu qədər təmizlənmədən sonra istifadə olunsa da, inkişaf etmiş ölkələrdə palma yağı qatılan bütün qida məhsullarının qablaşdırılması üzərində bu barədə qeydin olması tələbi var.

Təəssüf ki, ölkəmizdə hansısa məhsulun insan orqanizminə zərərini araşdıracaq qədər yüksək inkişaf etmiş elmi tədqiqat institutlarının olmaması nəinki palma yağı, digər məhsullarla bağlı analoji iddiaların doğruluq əmsalını müəyyənləşdirməyə imkan vermir. Lakin istehlak bazarına nəzarəti təmin etməli qurumların ən azı bu və ya digər məhsulun tərkibində palma yağının, yaxud başqa komponentin miqdarını müəyyən etmək imkanları olmamış deyil...

**Qida Təhlükəsizliyi Hərəkatının rəhbəri, sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynovanın "Yeni Müsavat"a dediyinə görə, palma yağı inkişaf etməkdə olan ölkələrdə daha çox istehlak olunur:** "Azərbaycan və digər belə ölkələrdə palma yağı ucuz olduğuna, həmçinin ondan hazırlanan məhsulların rəf ömrü uzun olduğuna görə çox istehlak olunur. Avropada, inkişaf etmiş ölkələrdə mütləq tələb var ki, hansısa məhsulun tərkibində palma yağının olduğu onun üzərində mütləq qeyd olunmalıdır. Azərbaycanda bir çox hallarda palma yağı əvəzinə bitki yazı yazmaqla kifayətlənirlər".

**Mütəxəssis bildirir ki, palma yağı orqanizmdə ürək-damar xəstəlikləri, onkoloji xəstəliklər, şəkərli diabet kimi xəstəliklərin yaranmasını sürətləndirir:** "Bu yağdan çox istifadə olunmamalıdır. Tərkibindəki doymuş yağlar orqanizmdə sərbəst radikalların ayrılmasını, bu isə dəri xərçəngi kimi xəstəliklərin yaranmasını stimullaşdırır. Buna görə də yaxşı olar ki, Azərbaycan istehlakçıları məhsul alarkən palma yağı qatılan məhsullara üstünlük verməsinlər. Doğrudur, hazırda belə məhsullar azdır, amma yenə də istehlakı azaltmaq məqsədəuyğun olar. Xüsusilə də uşaqların və yeniyetmələrin rasionuna belə məhsullar daxil edilməməlidir".

**❑ Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
Son səhifə
N 112 (8248) 5 iyul 2023
İyul

## Almaniyada piyadalar üçün dünyanın ən uzun asma körpülərindən biri açılıb



**Almaniyada yeni qeyri-adi turistik məkan peyda olub. Məlumata görə, "Skywalk Willingen" adlı 665 metrlik piyadalar üçün asma körpü iyulun əvvəlində Villinhen xizək kurortunda ziyarətçilərin istifadəsinə verilib. Almaniyadakı ən uzun piyada asma körpü Mülenkopfşanse xizəklə tullanma üzrə Dünya Kuboklarının keçirildiyi tramplin yaxınlığındakı iki yamac arasında uzanır.**

İsveçrə tikinti firması tərəfindən inşa edilən yeni asma körpü Tibet üslubunda dizayn edilib. Onun heç bir ucaldıcı komponentləri və dayaqları yoxdur. Qurğu vadinin üzərində sərbəst şəkildə uzanır. Konstruksiyanın ümumi çəkisi - 125 ton, eni - 1,3 metrdir. Körpünün yerdən maksimum hündürlüyü 100 metrdir.

Bildirilir ki, layihənin planlaşdırılması, texniki detalların koordinasiyası, təhlükəsizlik məsələləri və layihənin həyata keçirilməsi beş ildən çox vaxt aparıb, xərci isə dörd milyon avronu keçib. Qeyd olunur ki, körpüdə eyni vaxtda 750 nəfərə qədər insan ola bilər.

Xatırladaq ki, piyadalar üçün dünyanın ən uzun asma körpüsü hazırda Çexiyadadır. 721 metrlik "Sky Bridge" 2022-ci ildə açılıb.

## Sağlam olmaq üçün nə vaxt yatmaq lazımdır?

**Gec saatlarda yatıb çox yatmaq belə insanın sağlamlığına və rifahına mənfi təsir göstərə bilər. Buna görə də bu vərdişi dəyişdirmək lazımdır. Bu barədə terapevt Mariya Timçenko məlumat verib. Mütəxəssis deyib ki, özünüzü daha ayıq hiss etməyə və sağlamlığınızı yaxşılaşdırmağa kömək edəcək cədvələ öyrəşmək hər kəsin səlahiyyətindədir. Bir neçə sadə məsləhət bu işdə sizə kömək edəcək.**

İlk növbədə həkim saat 23.00-dan əvvəl yatmağı tövsiyə edir. Gec yatmağa öyrəşmisinizsə, əvvəlcə çətin ola bilər, amma bir neçə gündən sonra yeni rejimə öyrəşəcəksiniz. İkinci vacib qayda odur ki, yuxu ən azı 7 saat davam etməlidir. Mütəxəssis məsləhət görüb ki, həm həftə sonlarında, həm də tətildə yuxu və fəaliyyət rejiminə riayət etmək məsləhətdir. Beləliklə, bədən üçün lazımsız stressdən qaçınırsınız.

Həkim qeyd edir ki, yatmağa getmə vaxtı onun müddətindən az əhəmiyyət kəsb etmir. Məsələ burasındadır ki, saat 23.00-dan 3.00-a qədər yuxunun dərin mərhələsi başlayır. İnsanlar çox gec yatdıqda bu müddəti atlayır və ya qısaldırlar. Nəticədə, konsentrasiyanın pisləşməsinə, əsəbiliyə və pis əhval-ruhiyyəyə səbəb olan yuxu çatışmazlığı və zaman keçdikcə xroniki xəstəliklərin və ya sağlamlıq problemlərinin inkişafına kömək edə bilər.

Yatmazdan əvvəl sakit bir mühit də vacibdir. Yatmazdan bir-iki saat əvvəl pərdələri möhkəm bağlamalı, televizoru söndürməlisiniz. Həkim izah edir: ekranı mavi işıq spektrində işləyən bütün qadcetlər melatonin istehsalına maneə törədir. Yuxuya təsir edən əsas hormondur. Yatmazdan əvvəl pəhrizə riayət etmək eyni dərəcədə vacibdir - yeni yatmazdan 2-3 saatdan gec olmayaraq şam yeməyin.

## Piylənmənin gizli təhlükəsi açıqlandı



**"Piylənmə qamətin pozulmasına səbəb ola bilər". Bu barədə rusiyalı məşhur həkim və teleaparıcı Aleksandr Myasnikov artıq çəkinin gizli təhlükələri barədə danışarkən bildirib.**

Aparıcının sözlərinə görə, qarın böyük olduğuna görə bədəndəki ağırlıq mərkəzi dəyişir, ona görə də insan daim arxaya əyilir. Həkim həmilə qadınların da oxşar problemlərlə üzləşdiyini, ancaq onlar üçün müvəqqəti xarakter daşıdığını qeyd edib. "Lakin böyük qarınla ələqədar belə bir duruş əldə edilərsə, sonra onu dəyişmək mümkün olmur. Bu, ət deyil, piy deyil. Bəs onda onurğa sütununu qırmaq lazımdır?..", - deyə Myasnikov xəbərdarlıq edib.

Bu səbəbdən o, ilk növbədə qidalanmaya fikir verməyi və idmanla məşğul olmağı tövsiyə edib.



## Baydenin oğlunun kompüterindən qalmaqallı görüntülər

**Sosial şəbəkələrdə ABŞ Prezidenti Co Baydenin oğlu Hanterin kompüterindən qalmaqallı görüntülər yayılıb. Kadrlarda o, avtomobil idarə edərkən narkotik qəbul etdiyi zaman görüntülənib. Las-Veqasa səfər zamanı çəkilmiş başqa bir şəkildə o, "Porsche" avtomobilini saatda 172 mil (saatda 276 kilometr) sürətlə sürdüyü zaman əks olunub. Qeyd edək ki, 53 yaşlı Hanterin silah, narkotik və qızlarla intim fotolarını, habelə yetkinlik yaşına çatmayanlarla yazışmalarını özündə əks etdirən kompüteri 2019-cu ildə FTB-yə daxil olub.**

## Bunları bilirsinizmi?

* Napaleonun əsgərlərinin generala "sən" deyə müraciət etmək hüquqları var idi.
* Birinci minillikdə 365 min 250 gün, ikinci minillikdə 365 min 237 gün olub. Üçüncü minillikdə isə 365 min 242 gün olacaqdır.
* Dünyadakı canlılardan düz xətt çəkə bilən yeganə məxluq insandır.
* Yaponiyaya atılan ilk atom bombası "Enola Gay", ikinci isə "Bocks Car" adlanan təyyarələrdə yerləşmişdir.
* Şampan şüşəsi tıxacının uçuş sürəti saniyədə 14, uçuş məsafəsi isə 12 m-dir.
* İlk reklam 1477-ci ildə İngiltərədə istehsal olunub. Bu, dua kitabının reklamı idi.
* Tarixdə ən qısa müharibə 1896-ci il avqustun 27-də Böyük Britaniya ilə Zanzibar arasında baş vermişdir. Bu müharibə 38 dəqiqə davam etmişdir.
* Gülüş zamanı insanın 17 əzələsi işləyir.
* İnsanın həyatı boyu başında çıxan tükləri ölçsək 725 km edəcək.
* Cek-Petroşitel XIX əsrin ən tanınmış qatilidir. O, öz cinayətlərini yalnız və yalnız bazar günləri həyata keçirib.
* Dahi fizik Albert Eynşteyn öləndə son sözlərini özü ilə "o dünyaya" aparmışdır. Çünki ölən zaman onun yanında olan tibb bacısı alman dilini bilmirdi.
* "Yüzillik müharibə" (1337-1453) fasilələrlə 116 il davam edib.
* İnsan orqanizmində leykositlər 2-4, eritrositlər isə 3-4 ay yaşayır.
* Fransızlar barmaqları pus, indeks, macor, anyuler, orikyuler deyə adlandırırlar.

## Stüardessa təyyarədə sərnişinlər üçün qadağan edilmiş istəkdən danışdı



**ABŞ-nin "JetBlue Airways" aviaşirkətinin adını açıqlamaq istəməyən stüardessası sərnişinlər üçün qadağan edilmiş xahişlər barədə danışıb. Onun sözlərinə görə, bu istək heyət üzvlərini pis vəziyyətdə qoya və onların uzun müddət çətinlik çəkməsi ilə nəticələnə bilər. Heyət üzvünün sözlərinə görə, söhbət səyahətçilərin stüardessalardan baqajlarını götürmələrini və oturacaqların üstündəki şkaflara qoymalarını istəmələri ilə bağlıdır.**

Aviaşirkət rəsmisi bildirib ki, bu halda sərnişinlərə kömək etmək stüardessaları ciddi zədə riski ilə üz-üzə qoyur, halbuki bunun üçün təzminat nəzərdə tutulmayıb. "Əl yükü ilə bağlı kömək göyərtədə olan personalın məsuliyyəti olmadığına görə, ekipaj üzvləri baqajınızı qaldırarkən özlərinə xəsarət yetirirlərsə, zədə səbəbindən işi yarımçıq qoyma riski ilə üzləşirlər. Belə bir hadisə, onların heç bir kompensasiya ümidi olmadan aylarla əziyyət çəkməsinə səbəb ola bilər", - deyə stüardessa izah edib.

O əlavə edib ki, stüardessalar nə qədər müştərilərə yaxşı münasibət göstərmək istəsələr də, ağır baqajı olan 200 nəfərə kömək etməklə özlərini riskə ata bilməzlər.

## Rusiyada 82 yaşlı təqaüdçü polisin qətlini sifariş edib



**Rusiyanın Krasnodar üzrə Daxili İşlər Nazirliyinin Mətbuat Xidməti bildirib ki, cinayət axtarışı şöbəsinin əməliyyatçısının qətlini 82 yaşlı yerli sakin sifariş edib. Hüquq-mühafizə orqanlarından verilən məlumata görə, təqaüdçü killer tutaraq ona bir milyon rubl ödəyəcəyini vəd edib. Silah kimi ov tüfəngi seçilib. Polis bu planlardan xəbər tutub. "Qatil" saxta şəkilləri sifarişçiyə təqdim edərək ondan pulun bir qismini alıb. Bundan sonra təqaüdçü saxlanılıb. Şübhəlinin mənzilindən odlu və soyuq silahlar, həmçinin 1,8 milyon rubldan çox pul tapılıb. Hazırda bütün materiallar istintaq orqanlarına verilib.**

Səhifəni hazırladı: SELCAN

Redaktor: Nazim SABİROĞLU
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Sifariş: 1700
Lisenziya N: B 114
SAYI: 1.500
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.